Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

12 MART 2020-ci il

№ 44 (4175)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# BƏZİ BEYNƏLXALQ MƏRKƏZLƏRİN AZƏRBAYCANDA YENİ GİZLİ FƏALİYYƏTİ DEŞİFRƏ OLUNDU - «YENİ 5-ci KOLON ƏMƏLİYYATI»...

■ səh. 4 ■

Prezident İlham Əliyev türkmənistanlı həmkarına - "Xəzər, Qafqaz və Mərkəzi Asiya regionunda çox mühüm məsələləri həll edirik"

■ səh. 2 ■

Prezidentin sərəncam və göstərişlərinin icra vəziyyətinə nəzarət mexanizmi yenidən gündəmdə...

■ səh. 3 ■

Türkiyənin qorxunc PUA-ları ordumuzun ixtiyarına verilir - Ermənistan müharibə təhlükəsini artırır

■ səh. 9 ■

Siyasi dialoqsuz nə siyasi islahat - Azərbaycanda siyasi dialoqun yeni mərhələsinin tezisi...

■ səh. 4 ■

1993-cü ildən indiyədək dünya Qarabağ münaqişəsinin mahiyyətinə və tarixinə aid hansı faktları öyrənib?

■ səh. 7 ■

"Qarabağ klanı" ilə Paşinyan iqtidarı arasında qarşıdurma kəskinləşir - Qarabağda vətəndaş toqquşması real olacaq...

■ səh. 10 ■

Koronavirusla mübarizə dövründə super ticarət mərkəzlərinin işləməsi doğrudurmu...

■ səh. 13 ■

Bakıdakı Çin və İtaliya restoranları fəaliyyətini hələ davam etdirir

■ səh. 14 ■



## Qlobal neft qiyməti böhranı və Azərbaycan iqtisadi-maliyyə sisteminin etibarlı təhlükəsizlik yastıqları...

■ səh. 11 ■



Köhnə deputatlardan kimlərinsə dövlət əleyhinə fəaliyyəti açılır - beynəlxalq təşkilatlarla sövdələşmə...

■ səh. 8 ■

Deputatlar bundan sonra da bizneslə, qohum-əqrəbasına dəstək verməklə məşğul olsa...

■ səh. 5 ■



Rusiya və Səudiyyənin «dollar-neft müharibəsi»nin uzun sürəcəyi proqnoz edilir

■ səh. 12 ■

Azərbaycanın daxili siyasi məsələlərinin həllini beynəlxalq aləmə çıxarmaq niyə ziyanlıdır...

■ səh. 5 ■



Belçikada Natəvanın heykəlinə qarşı vandalizm aktının ilhamvericisi şəxsən Paşinyandır

■ səh. 6 ■



Parlamentin rəhbərliyində çoxpartiyalılıq və siyasi sistemin təkmilləşdirilməsi perspektivi...

■ səh. 3 ■



Koronavirusun təhsildə yaratdığı fasilənin çarəsi tapıldı - Nazirliyin tələdərslər layihəsi...

■ səh. 13 ■



Çörək satışı qaydalarında virus yayılma risqlərinə rəvac verən normalar hələ davam etdirilir

■ səh. 14 ■



## Azərbaycan diasporu Belçikada Natəvanın heykəlinin təhqir edilməsi ilə bağlı hərəkətə keçdi

**Belçikanın Vaterloo şəhərində görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın heykəlinə qarşı vandalizm aktı törədilməsi Avropada yaşayan soydaşlarımızın hiddətinə səbəb olub.**

Diasporla İş üzrə Dövlət Komitəsindən "Trend"ə verilən məlumata görə, Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurası və Benilüks Azərbaycanlıları Konqresi bu xoşagəlməz insidentlə bağlı məktubla Vaterloo şəhər meri Floran Rötere müraciət edib.

Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurasının məktubunda bildirilib ki, 8 Mart - Beynəlxalq Qadınlar Günündən bir qədər sonra baş verən bu insident Azərbaycan qadınına şiddət və vandalizm aktı kimi qiymətləndirilir: "Bu yolverilməzdir və günahkarların tapılıb cəzalandırılması üçün təcili tədbirlərin görülməsini xahiş edirik".

Benilüks Azərbaycanlıları Konqresinin sədri Elsevər Məmmədovun məktubunda bu hadisə dəhşətli xəbər adlandırılıb: "Təəssüf ki, kimin bunu edə biləcəyindən anlayışımız yoxdur və biz kimin və nədən bunu etdiyini öyrənmək istəyirik. Biz Sizdən və müstəntiqlərinizdən kimin bunu etdiyini araşdırmağınızı xahiş edirik. Biz çox məşhur şairələrimizdən birinə ucaldılmış bu abidəni yüksək dəyərləndiririk və bu hərəkət bizim üçün çox ağırdır. Ümid edirik ki, bunun nə məna kəsb etdiyini və Vaterloda bu abidənin bizim üşün necə dəyərə malik olduğunu siz başa düşürsünüz".

Sonda merin bu məsələ ilə bağlı tezliklə cavab verəcəyinə ümid ifadə olunub.

Xatırladaq ki, Belçika Krallığının Vaterloo şəhərinin mərkəzi parkında Azərbaycanın görkəmli şairəsi Xurşidbanu Natəvana abidə ucaldılması Heydər Əliyev Fondunun dəstəyi ilə gerçəkləşdirilib Abidənin açılışı 2016-cı il fevralın 18-də olub. Heykəlin postamentində "Şərqin müasir maarifçi və şairə qadını Xurşidbanu Natəvan, Qarabağ şahzadəsi, Azərbaycan" sözləri yazılıb. Özündə Qarabağla bağlı qeydi əks etdirən bu abidənin Belçikada ucaldılması Azərbaycan həqiqətlərinin yaşadılması və dünyada tanıdılması istiqamətində görülən işlərə bir töhfədir.

Heykəl Vaterloo şəhərinin mühafizə edilən tarixi abidələr siyahısına daxildir.

## Samur Gömrük postunda yüksək məmur həbsləri...

**Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Gömrük Komitəsinin mətbuat xidmətləri birgə məlumat yayıb.**




Baki-xeber.com-a daxil olan birgə məlumatda bildirilib ki, Azərbaycan Respublikasının dövlət sərhədindən qatar və yük maşınları ilə nəql edilməklə külli miqdarda tütün məmulatlarının ölkədən müntəzəm qaçaqmalçılıq yolu ilə çıxarıldığına dair əldə olunmuş məlumatlar əsasında Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Gömrük Komitəsi tərəfindən birgə araşdırma aparılıb.

Keçirilmiş əməliyyat-istintaq tədbirləri ilə Qusar rayonu ərazisində yerləşən Samur Gömrük postunda ümumi gömrük prosedur yoxlamasından keçib sərhəddən çıxışa buraxılan 40-BL-400 dövlət qeydiyyat nişanlı "Mercedes" markalı yük avtomobili saxlanılıb. Həmin avtomobilə baxış zamanı gömrük nəzarətinə başqa ad altında bəyan edilib, üzəri digər məhsulla qablaşdırılıb, xarici istehsallı 15 ton çəkidə tütün məmulatları aşkar edilərək götürülüb.

Qeyd olunan faktla bağlı Dövlət Təhlükəsizliyi Xidmətində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206-cı (qaçaqmalçılıq) maddəsi ilə aparılan cinayət işi üzrə Azərbaycan Respublikasının vətəndaşları - Dövlət Gömrük Komitəsinin Şimal Ərazi Baş Gömrük İdarəsinin rəis müavini Hüseynov Emin Əlmərdan oğlu, Hüseynov Kərim Əhmədağa oğlu və Əliyev Ramin Mehdi oğlu təqsirləndirilən şəxs qismində cəlb olunaraq, məhkəmənin qərarı ilə barələrində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Hazırda araşdırmalar davam etdirilir.

# Prezident İlham Əliyev türkmənistanlı həmkarına - "Xəzər, Qafqaz və Mərkəzi Asiya regionunda çox mühüm məsələləri həll edirik"

**Martın 11-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovla təkbətək görüşü olub.**



İlham Əliyev deyib ki, biz öz regionumuzda - Xəzər, Mərkəzi Asiya və Qafqaz regionunda çox mühüm məsələləri həll edirik. Buna görə əminəm ki, ölkəmizə budəfəki rəsmi səfəriniz səmərəli, məhsuldar olacaq və yaxşı nəticələr verəcək.

Daha sonra Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub.

Görüşdə Azərbaycanla Türkmənistan arasında əlaqələrin strateji tərəfdaşlıq xarakteri daşıdığı vurğulanaraq, Azərbaycan və Türkmənistan prezidentlərinin qarşılıqlı səfərlərinin mütəmadi həyata keçirildiyi qeyd olunub. Türkmənistan Prezidentinin səfəri çərçivəsində 20-yə yaxın sənədin imzalanacağı, Azərbaycan Prezidentinin 2018-ci ildə Türkmənistana səfəri zamanı 20-dən artıq ikitərəfli sənədin imzalandığı vurğulanıb və bununla da ikitərəfli müqavilə-hüquq bazasının genişləndiyi bildirilib. Azərbaycan və Türkmənistan xalqlarının ortaq etnik kökə, mədəniyyətə və ənənələrə malik olduqları vurğulanıb.

Azərbaycanın və Türkmənistanın beynəlxalq təşkilatlar çərçivəsində, xüsusilə BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı kimi təsisatlarda sıx əməkdaşlıq etdiyinin vurğulandığı görüşdə diqqətə çatdırılıb ki, ölkələrimiz daim bir-birinin təşəbbüslərinə dəstək göstərir.

Görüşdə iki ölkə arasında ticarət dövriyyəsinin və nəqliyyat daşımalarının artması məmnuniyyətlə qeyd olunub.

Söhbət zamanı Xəzər dənizinin Azərbaycan və Türkmənistanı birləşdirən məkan olduğu bildirilib, Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın tarixi əhəmiyyəti vurğulanıb.

Görüş çərçivəsində enerji, kənd təsərrüfatı, elm-təhsil, turizm, mədəniyyət, idman və digər sahələrdə əməkdaşlığa dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonra Prezident İlham Əliyev və Qurbanqulu Berdiməhəmmədovun iştirakı ilə Azərbaycan-Türkmənistan sənədlərinin imzalanması mərasimi olub.

Sənədlərin imzalanması mərasimindən sonra prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

***Baki-xeber.com***

# Həm torpağımızı işğal edib, həm də Azərbaycanı sərhəd gərginliyində günahlandırır...

## *XİN: "Dağlıq Qarabağda Ermənistan silahlı qüvvələrinin mövcudluğu Azərbaycanın təhlükəsizliyinə əsas təhlükə mənbəyidir"*

**Ermənistan Xarici İşlər Nazirliyi (XİN) 10 mart tarixində bəyanatla çıxış edərək, Azərbaycanı Ermənistanla dövlət sərhədində vəziyyəti gərginləşdirməkdə, regional sülh və təhlükəsizliyə hədə təşkil etməkdə ittiham edib.**

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva ittihamlarla bağlı baki-xeber.com-un sualını cavablandırıb.

L.Abdullayeva bildirib: "Öncə bir məsələyə aydınlıq gətirək, bu bəyanatı kim verir? Bu açıqlama Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarını hərbi işğal edib bu ərazilərdəki azərbaycanlıları qanlı etnik təmizləməyə məruz qoyan işğalçı ölkənin XİN-nin dilindən səslənir. Bu bəyanatlar son həftələr ərzində Azərbaycan-Ermənistan sərhədində Azərbaycanın beynəlxalq tanınmış sərhədlərini qoruyan sərhədçi əsgərlərimizi məqsədyönlü şəkildə qətlə yetirən Ermənistan Respublikasına aiddir.




Ermənistan tərəfinin diqqətinə bir daha çatdırırıq ki, güc tətbiqi və etnik təmizləmə nəticəsində yaranmış hazırkı status-quo vəziyyəti təhlükəsizlik anlayışı ilə heç cür uyğun gəlmir. Azərbaycanın ərazilərinin işğalı və bu ərazilərdə Ermənistan silahlı qüvvələrinin mövcudluğu Azərbaycanın təhlükəsizliyinə əsas təhlükə mənbəyidir. Azərbaycan hər zaman təhlükəsizlik anlayışının bölünməzliyi və universallığı mövqeyindən çıxış edib. Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan silahlı qüvvələrinin çıxarılması, eləcə də bölgənin erməni və azərbaycanlı əhalisinin birgə sülh və qanunun aliliyi şəraitində yaşaması, birgə təhlükəsizliyin təminatı və bölgənin rifahı naminə etimadın və yaxınlaşmanın yaranmasını müəyyən edən şərtlərdir.

Ermənistan tərəfi mövcud reallığı düzgün dərk etməli və beynəlxalq ictimaiyyətin, o cümlədən BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq təşkilatların qətnamələrinin Azərbaycanın işğal olunmuş ərazilərini tam, dərhal və qeyd-şərtsiz boşaldılması, yerli azərbaycanlıların öz evlərinə geri qayıtmasının təmin olunması tələblərini yerinə yetirməlidir. Azərbaycanın ədaləti və beynəlxalq tanınmış sərhədləri çərçivəsində öz ərazi bütövlüyünü bərpa edəcəyindən heç kəs şübhə etməsin".

**Azərbaycan Prezident Administrasiyasında parlamentlə bağlı xüsusi şöbə yaradılıb. Bu barədə altıncı çağırış Milli Məclisin ilk iclasında çıxış edən Prezident İlham Əliyev deyib.**

*”...çox mükəmməl qanunlar qəbul edilir, müvafiq sərəncamlar verilir, amma...”*

# Prezidentin sərəncam və göstərişlərinin icra vəziyyətinə nəzarət mexanizmi yenidən gündəmdə...

***Seyid Camal Əzimbəyli:** ”Həqiqətən də bu sahədə görüləsi işlər var”*

Ölkə başçısının fikrincə, sərəncamların icrasına nəzarət lazımi səviyyədə deyil: "Biz bir çox gözəl qanunlar qəbul edirik, eyni zamanda, Prezident tərəfindən bir çox önəmli sərəncamlar imzalanır, ancaq onların icrasına nəzarət lazımi səviyyədə deyil. Ona görə Prezident Administrasiyasında xüsusi şöbə yaradıldı".

Prezident onu da qeyd edib ki, Milli Məclis, deputatlar da bu işlərlə məşğul olmalıdırlar: "Baxın, görün, qəbul olunmuş qanunlar icra edilir, yoxsa edilmir, bu qanunları pozurlar, yoxsa pozmurlar. Əgər belə hallar aşkarlanarsa, onda, əlbəttə ki, ciddi cəza tədbirləri görülməlidir. Ona görə hesab edirəm ki, bütövlükdə, - əlbəttə, bu, vaxt aparacaq, amma hər halda bunu etmək lazımdır, - biz qanunvericilik bazamızı təftiş etməliyik. Əgər lazım olarsa, onları qarşımızda duran mövcud hədəflərlə uzlaşdırmalıyıq. Çünki həyat yerində durmur, yeni çağırışlar, yeni problemlər üzə çıxır. Gözlənilmədən elə hadisələr baş verir ki, bütün dünya çaş-baş qalır. Ona görə bu qanunlar doqma deyil, onlara, əlbəttə ki, baxmaq lazımdır. Yeni qəbul ediləcək qanunların əsas mahiyyəti islahatları dərinləşdirməkdir".

Görünən odur ki, ölkə başçısının imzaladığı sərəncamların icrasına nəzarət mexanizminin yaradılması yenidən gündəmə gəlib. Hansı ki, bu çox vacib məsələdir.

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, qanunların nə dərəcədə icra edilməsinə nəzarət olmalıdır: "Çünki bu, müasir dövrün tələbidir. Həqiqətən də bu sahədə görüləsi işlər var. Bir sıra hallarda çox mükəmməl qanunlar qəbul edilir, müvafiq sərəncamlar verilir, amma sonrakı mərhələdə onların icrası arzuolunan səviyyədə olmur. Bu baxımdan ölkə başçısı çox önəmli bir məqama toxundu. Prezident İlham Əliyevin parlamentdə çıxışı hər bir vətənini sevən, ölkənin bütövlüyünü istəyən vətəndaşın ürəyincədir. Prezidentin çıxışı hüquqi bir dövlət olan Azərbaycanda hüquq sisteminin möhkəmlənməsinə öz töhfəsini verəcək.



Eləcə də verilmiş qərarların icrasının həyata keçirilməsini istəyən hər bir kəs üçün bu çox önəmli çıxışdır. Bu baxımdan düşünürəm ki, verilən sərəncamların icrasına nəzarət mexanizminin yaradılması çox vacibdir. Hesab edirəm ki, müəyyən mənada bu məsələdə gecikmə var. Hətta cənab Prezident də bu məsələdə gecikmələrin olması ilə bağlı öz iradlarını bildirib. Fikrimcə, ictimai təşkilatlar da qəbul olunan qərarların icrasına nəzarətin təmin olunmasında iştirak etməlidirlər. Belə olarsa, daha effektiv nəticələr əldə etmək mümkün olacaq. Nəticədə ölkəmizin daha dinamik inkişafına nail olacağıq".

***Vidadi ORDAHALLI***

---

**Azərbaycan Prezidenti İlham Əliyev yeni formalaşan parlamentin ilk toplantısında etdiyi çıxışda qanunverici orqanın rəhbərliyində müxalifəti təmsil edən millət vəkillərinin olmasının önəmindən bəhs edib: "Beləliklə, bütün siyasi qüvvələrin iştirak etdiyi seçkilər nəticəsində çoxpartiyalı parlament formalaşıb və hesab edirəm ki, bu, demokratiyanın inkişafında önəmli addımdır.**

# Parlamentin rəhbərliyində çoxpartiyalılıq və siyasi sistemin təkmilləşdirilməsi perspektivi...

***Vüqar Rəhimzadə:** ”Parlamentin idarə olunmasında fərqli siyasi palitranın yaradılması ümumi sistemi təkmilləşdirə bilər”*

***Xəzər Teyyublu:** ”Çox gözəl olardı ki, parlamentdə həmin postları əsl müxalifətin nümayəndələri tutsunlar”*



Bildiyiniz kimi, Yeni Azərbaycan Partiyası yerlərin əksəriyyətini qazanıb. Təbii ki, Yeni Azərbaycan Partiyasının Milli Məclisdə sözü kifayət qədər qiymətlidir və təsirlidir. Yeni Azərbaycan Partiyasını təmsil edən deputatlar bu gün səhər mənim tapşırığımla yığışmışlar və önəmli qərarlar qəbul etmişlər. Mənim tövsiyəm o olmuşdur ki, partiyaların nümayəndələri altıncı çağırış Milli Məclisin rəhbərliyində və komitələrin rəhbərliyində təmsil olunsunlar. Bu günə qədər belə bir hal olmamışdır. Keçən çağırış Milli Məclisin komitələrinin rəhbərliyində, parlamentin rəhbərliyində müxalifət nümayəndələri təmsil olunmurdu. Ancaq mən hesab edirəm ki, Azərbaycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək üçün buna ehtiyac var. Əlbəttə, hesab edirəm ki, Yeni Azərbaycan Partiyası ümumi maraqlar naminə bu sahədə də çox düzgün addım atır".

Qeyd edək ki, Milli Məclisdə keçirilən son səsvermənin nəticəsində parlamentin vitse-spikerlərindən biri müxalifəti təmsil edən Vətəndaş Həmrəyliyi Partiyasının üzvü olan Fəzail İbrahimlidir. Parlamentin daimi komissiyalarının rəhbərliyində də müxalif siyasi partiyaların təmsilçiləri yer alıb. Bu amilin siyasi sistemin təkmilləşdirilməsində nə kimi rolu olacaq?

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Vüqar Rəhimzadə "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, yeni parlamentdə, demək olar, əksər müxalifət partiyasının nümayəndələri təmsil olunur: "Azərbaycan növbəti dəfə uğurlu seçim edərək parlamenti formalaşdırıb. Yeni formalaşan parlamentdə biz müxalifəti təmsil edən millət vəkillərinin də yüksək postlara seçildiyini gördük. Vitse-spikerlərin arasında müxalifəti təmsil edən Fəzail İbrahimli də var. Bunun özü parlamentin demokratik əsaslarla formalaşdığına bir sübutdur. Cənab Prezident çox doğru qeyd edir ki, parlamentin idarə olunmasında fərqli siyasi palitranın yaradılması ümumi sistemi təkmilləşdirə bilər. Çünki alternativ fikirdən hər zaman inkişaf doğur. Bunu müsbət hal sayıram. Hesab edirəm ki, millət vəkilləri hansı partiyadan seçildiklərindən asılı olmayaraq, seçicilərlə tez-tez görüşəcək, onların problemləri ilə yaxından maraqlanacaqlar".

Müxalifyönümlü Klassik Xalq Cəbhəsi Partiyasının funksioneri Xəzər Teyyublu "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ümumən qanunverici orqanda müxalifətin təmsil olunması yaxşı haldır: "Bu, demokratiyanın tələbidir. Biz də istərdik ki, bizim parlamentdə müxalifəti daha çox millət vəkili təmsil etsin. Bunun da yolu proporsional seçki sisteminin bərpasından keçirdi. Belə olan halda, partiyaların rolu cəmiyyətdə daha da artırdı. İndi parlamentdə müxalifət adı ilə təmsil olunanlar özlərini buraxmağa səs verənlərdir. Uzun illər ərzində biz onları parlamentdə müxalifət təmsilçisi kimi görmədik. Prezident bunu istəyirsə, siyasi sistemin təkmilləşməsi baxımından doğrudan da önəmlidir. Ancaq çox gözəl olardı ki, parlamentdə həmin postları əsl müxalifətin nümayəndələri tutsunlar".

***Məhəmmədəli QƏRİBLİ***

# Bəzi beynəlxalq mərkəzlərin Azərbaycanda yeni gizli fəaliyyəti deşifrə olundu - "Yeni 5-ci kolon əməliyyatı"...

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da altıncı çağırış Milli Məclisin ilk iclasındakı çıxışında bəzi beynəlxalq dairələrin Azərbaycanda yeni "5-ci kolon" formalaşdırmaq istəyindən danışıb: "Gənclər milli ruhda tərbiyə almalıdırlar, xarici təsir altına düşməməlidirlər, xüsusilə indiki internet dövründəki istənilən yalan tezliklə yayılır və sonra elə bil həqiqət kimi təqdim olunur.**



## *Rauf Zeyni: "Biz hər bir fərdimizin qeydinə qalıb, onu qorumalıyıq ki, həmin təsirlərin altına düşməsin"*

Bu da bizə qarşı aparılan qeyri-təmiz siyasətin bir hissəsidir. Çünki sirr deyil ki, Azərbaycanda hazırda ictimai-siyasi vəziyyət çox sabitdir. Ölkəmizdə ictimai-siyasi sabitliyə təhlükə törədə biləcək heç bir amil mövcud deyil".

Prezidentin sözlərinə görə, bu amilləri anti-Azərbaycan qüvvələr ölkəmizin xaricində yaratmaq istəyirlər: "Burada özünü müxalifət adlandıran və tamamilə rüsvayçı halda guya fəaliyyətini davam etdirən qruplaşmadan artıq onların əli üzülüb, onlara heç inam da qalmayıb. Ona görə yeni "beşinci kolon"un yaradılması istiqamətində iş aparılır. Çünki indiki "beşinci kolon" öz sahiblərinin etimadını doğrultmur. Azərbaycanda çevriliş edə bilməyib, dırnaqarası inqilab edə bilməyib, xalqın dəstəyini qazana bilməyib, sadəcə, onlara müntəzəm olaraq verilən pulları mənimsəyib və beləliklə, öz havadarlarını pis günə qoyubdur.

Odur ki, yeni "beşinci kolon" axtarışı gedir. Mən bütün siyasi qüvvələri bu məsələ ilə bağlı çox ciddi xəbərdar etmək istəyirəm ki, bu yol xəyanət yoludur, bu yola gedən xalq, dövlət qarşısında xəyanət edəcək".

Göründüyü kimi, ölkə başçısı bəzi dairələrin Azərbaycanda yeni "beşinci kolon" yaratmaq istəyindən danışıb. Təbii ki, bu, ölkəmizdə yarana biləcək təhlükə ilə bağlı verilən ciddi xəbərdarlıqdır. Yeni "5-ci kolon"u kimlərdən təşkil etmək istəyirlər və bunun qarşısı hansı üsullarla alınmalıdır?

Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, ölkə başçısı parlamentin ilk iclasında etdiyi çıxışda çox mühüm məqamlara toxundu: "Proqram xarakterli çıxışda Prezident ölkəmizin inkişafı ilə bağlı bütün istiqamətlərdə olan vəziyyəti təhlil etdi. Bura ölkədə aparılan islahatlardan tutmuş, deputatların gələcəkdə necə davranacağına dair verdiyi tövsiyyəni də aid edə bilərik. Prezident ölkəmizə olan xarici siyasi təhdidlərdən də geniş bəhs etdi və bildirdi ki, bunun üçün yeni "5-ci kolon" formalaşdırılır. Ölkədə müəyyən qüvvələrin belə niyyətdə olmasını biz dəfələrlə qeyd etmişik. Bu prosesə əsasən gəncləri və cəmiyyətin fəal zümrəsini cəlb etmək istəyirlər. Əsasən də QHT və media təmsilçilərinin nümayəndələrinin əməyindən daha çox istifadə etməyi düşünürlər. Məqsəd Azərbaycanı öz iradələrinə tabe etdirməkdir. Azərbaycanın müstəqil siyasət yürütməsi onları qane etmir. Vacib məqam budur ki, həmin dairələr yeni "5-ci kolon" formalaşdırmaq istiqamətində işləyirlər. Hər halda, bunu Prezident deyirsə, informasiyanın mötəbərliyinə şübhə ola bilməz. Onların əvvəlki şəbəkəsi tapşırıqların öhdəsindən gələ bilmədi. Tapşırıqlar da çox təhlükəli idi. Çevriliş etmək, ölkəmizdə stabilliyi pozmaq. Müstəqillik dönəmindən bu tərəfə bizim forum illərdir belə təhdidlərlə mübarizə aparır. Hesab edirəm ki, bundan sonra bu istiqamətdə daha gərgin işləməliyik. Bunun üçün vətəndaş cəmiyyəti güclənməlidir. Gənclərlə iş fərqli və daha təsirli əsaslarla aparılmalıdır. Xüsusilə də regionlarda layihələrin icrasına ciddi fikir verilməlidir. Biz hər bir fərdimizin qeydinə qalıb, onu qorumalıyıq ki, həmin təsirlərin altına düşməsin. Bu haqda ciddi düşünməliyik. Keçən il biz bu məqsədlə tədbirlər keçirmişik. Mediaya da açıqlanıb ki, məqsədimiz yadd təsirlərdən necə qorunmağı öyrənmək olub. Xarici və zərərli amillərin qarşısını almaq üçün bütün cəmiyyət və əlaqədar qurumlar səfərbər olunmalıdırlar".

***Məhəmmədəli QƏRİBLİ***

# Siyasi dialoqsuz nə siyasi islahat - Azərbaycanda siyasi dialoqun yeni mərhələsinin tezisi...

**"Siyasi islahatlar partiyalararası geniş dialoq aparılmadan həyata keçirilə bilməz". Bunu Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin ilk iclasındakı çıxışında bildirib. Ölkə başçısının sözlərinə görə, altıncı çağırış Milli Məclis bu sahədə öz sözünü deyəcək:**




## *Məhərrəm Zülfüqarlı: "Hesab edirəm ki, siyasi dialoq çərçivəsində aparılan islahatlar daha effektli nəticələrə gətirib çıxaracaq"*

"Eyni zamanda, Prezident Administrasiyasının nümayəndələri son vaxtlar, demək olar ki, bütün siyasi qüvvələrin rəhbərləri ilə görüşlər keçirir. Mənə bu görüşlər haqqında müntəzəm olaraq məruzə edilir. Bütövlükdə, ilkin rəy müsbətdir. Hesab edirəm ki, indiki genişmiqyaslı islahatlar dövründə siyasi islahatlar mütləq aparılmalıdır. Bir partiya - hakim partiya təkbaşına siyasi dialoq apara bilməz. Çünki dialoq üçün tərəf-müqabillər lazımdır və ilkin təəssürat müsbətdir. Bu təşəbbüs heç bir şərt qoymadan həyata keçirilir".

Prezident onu da qeyd edib ki, Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır: "Hesab edirəm ki, qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq. Hazırda siyasi partiyanı yaratmaq üçün heç bir ciddi meyar tələb olunmur. Hesab edirəm ki, bu praktikaya son qoyulmalıdır".

Prezident bildirib ki, həm seçkilər, həm də seçkilərdən sonra keçən dövr, iqtidar tərəfindən siyasi partiyalara yönəlmiş addımlar - bütün bunlar bizim mövcud siyasətimizin yeni mərhələsini əks etdirir: "Bu, bizim islahatçı kursumuzu əks etdirir".

Görünən odur ki, ölkədə siyasi dialoqun yeni mərhələsinə start verilir. Bütün bunlar siyasi islahatlara ciddi təkan verəcək.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

## *"Siyasi dialoq dövlətin inkişafına xidmət edir"*

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, ölkə Prezidentinin siyasi dialoqa xüsusi önəm verməsi mühüm hadisədir: "Hesab edirəm ki, siyasi dialoq çərçivəsində aparılan islahatlar daha effektli nəticələrə gətirib çıxaracaq. Ona görə də Prezidentin məlum yanaşması alqışalayıqdır. Onu da qeyd edim ki, biz əvvəllər də təşkilat olaraq dialoqun tərəfdarı olmuşuq. Bu il də seçkilərdə aralıq hesabat olaraq 3 təklif irəli sürmüşdük. Onlardan birə də partiyalar çərçivəsində iqtidar-müxalifət dialoqunun təşkili ilə bağlı idi. Bütövlükdə, Prezidentin bu təkliflə çıxış etməsi alqışlanmalıdır. Ona görə ki, demokratik bir cəmiyyətdə çoxpartiyalı sistemdə siyasi təşkilatların dialoqu lazımdır. Çünki siyasi dialoq dövlətin inkişafına xidmət edir. İslahatların daha səmərəli fayda verməsinə şərait yaradır. Prezident daim öz siyasətində bunu önə çəkirsə, əlbəttə ki, bunu dəstəkləmək lazımdır.

**Hesab edirəm ki, hansısa bir məsələ ilə bağlı partiyaların toplantısını keçirmək olar. Bununla belə, toplantıya bütün partiyaları dəvət etməyə də ehtiyac yoxdur. Çünki Azərbaycanda 55 siyasi partiya var. Fikrimcə, real partiyalarla dialoq aparmaq lazımdır. Bir papkası və bir də özü olan partiyaların dialoqa dəvət olunmasına ehtiyac yoxdur".**

***Vidadi ORDAHALLI***

**"Əvvəllər belə hallar kifayət qədər çox olubdur. Öz qohumlarını vəzifələrə yerləşdirmək, hansısa torpaq sahələri əldə etmək, hansısa biznesə dəstək göstərmək və sair və ilaxır". Bu fikirləri Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin ilk iclasındakı çıxışında bildirib.**

# Deputatlar bundan sonra da bizneslə, qohum-əqrəbasına dəstək verməklə məşğul olsa...

## *Ramil Hüseynov: "Zaman-zaman seçicilər bəzi deputatların yarıtmaz fəaliyyətindən çox əziyyət çəkiblər"*



Ölkə başçısının sözlərinə görə, deputatlar seçildikləri dairələrdə fəal və seçicilərlə daim təmasda olmalıdırlar: "İndi sirr deyil, əvvəlki dövrlərdə bəzi deputatlar seçicilərdən bir qədər, yaxud da ki, tamamilə uzaqlaşmışdılar. Heç öz dairələrinə baş çəkmirdilər, problemlərlə maraqlanmırdılar. Öz şəxsi problemlərini ortaya qoyurdular. Buna da son qoyulmalıdır. Əvvəllər belə hallar kifayət qədər çox olubdur. Öz qohumlarını vəzifələrə yerləşdirmək, hansısa torpaq sahələri əldə etmək, hansısa biznesə dəstək göstərmək və sair və ilaxır. Mən dərinə getmək istəmirəm. Ona görə yeni tərkibdə formalaşan Milli Məclis mənəvi cəhətdən qüsursuz olmalıdır. Çünki bizim əsas islahatlarımızın mahiyyəti də budur. Əgər bizim vətəndaşlar yaxından baxsalar görərlər ki, siyasi sahədə, struktur islahatları, kadr islahatları, vəzifələrə gətirilən kadrlar təmizdirlər. Yəni onların arxasında heç bir, necə deyərlər, mənfi iz yoxdur. Milli Məclis də, onun deputatları da bu meyarlara cavab verməlidirlər. Sabah siz xalq qarşısında cavab verməli olacaqsınız".

Görünən odur ki, yeni seçilmiş deputatlar bundan sonra öz şəxsi məsələlərinin həlli ilə məşğul olmağa, bu və ya digər dərəcədə biznesini genişləndirməyə çalışsalar, onlara güzəşt olmayacaq. Düzdür, qanunvericilik deputatın bizneslə məşğul olmasını qadağan edir. Ancaq o da heç kəsə sirr deyil ki, bəzi deputatlar bizneslərini qohumlarının adına keçirərək, pərdəarxası formada bu işə dəstək verirdilər. Bizneslərini qorumaqdan ötrü deputat mandatından, necə deyərlər, qalxan kimi istifadə edirdilər.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən siyasi ekspert Ramil Hüseynovun sözlərinə görə, əvvəlki parlamentdə belə hallar çox olub: "Milli Məclisə seçilən bəzi deputatlar mandatdan sui-istifadə edirdilər. Ancaq öz və yaxınlarının problemlərini həll etməkdən ötrü çalışırdılar. Yüksək rəngli nazirlərlə ünsiyyət qurub hansısa şəxsi məsələlərinin həlli ilə bağlı xahişlər edirdilər. Sadə bir seçicinin problemini həll etməkdən ötrü belə fəallıq göstərmirdilər. Təəssüflər olsun ki, bu belədir. O baxımdan, ölkə başçısının səsləndirdiyi iradlar reallığı əks etdirir. Deputatların bir çoxu mandat alandan sonra, ümumiyyətdə, seçildiyi dairənin problemləri ilə yaxından maraqlanmır. Bəzi deputatların seçicilərlə görüşləri formal xarakterlidir. Əslində, bunun seçicilərə heç bir xeyri olmur. Əvvəlki bəzi deputatların biznesi var və fəaliyyət göstərir. Hesab edirəm ki, bu sahəyə nəzarət artırılmalıdır. Deputatlar mandatdan öz şəxsi mənafeyi üçün istifadə etməməlidirlər. Zatən, zaman-zaman seçicilər bəzi deputatların yarıtmaz fəaliyyətindən çox əziyyət çəkiblər. Heç olmasa, bundan sonra belə hallara son qoymaq lazımdır".

## *"Hesab edirəm ki, bu sahəyə nəzarət artırılmalıdır"*

***Vidadi ORDAHALLI***

---

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da altıncı çağırış Milli Məclisin ilk iclasındakı çıxışında bildirib ki, bizim bütün daxili problemlərimiz Azərbaycanın daxilində həll olunmalıdır: "...Çünki sirr deyil ki, Azərbaycanda hazırda ictimai-siyasi vəziyyət çox sabitdir.**

# Azərbaycanın daxili siyasi məsələlərinin həllini beynəlxalq aləmə çıxarmaq niyə ziyanlıdır...

## *Yeganə Hacıyeva: "...ancaq beynəlxalq təşkilatlarda yurd salmış lobbi qrupları üçün əlavə yem funksiyasını daşıyır"*



Ölkəmizdə ictimai-siyasi sabitliyə təhlükə törədə biləcək heç bir amil mövcud deyil. Ona görə bu amilləri anti-Azərbaycan qüvvələr ölkəmizin xaricində yaratmaq istəyirlər. Burada özünü müxalifət adlandıran və tamamilə rüsvayçı halda guya fəaliyyətini davam etdirən qruplaşmadan artıq onların əli üzülüb, onlara heç inam da qalmayıb. Ona görə yeni "beşinci kolon"un yaradılması istiqamətində iş aparılır. Çünki indiki "beşinci kolon" öz sahiblərinin etimadını doğrultmur. Azərbaycanda çevriliş edə bilməyib, dırnaqarası inqilab edə bilməyib, xalqın dəstəyini qazana bilməyib, sadəcə, onlara müntəzəm olaraq verilən pulları mənimsəyib və beləliklə, öz havadarlarını pis günə qoyubdur. Odur ki, yeni "beşinci kolon" axtarışı gedir. Mən bütün siyasi qüvvələri bu məsələ ilə bağlı çox ciddi xəbərdar etmək istəyirəm ki, bu yol xəyanət yoludur, bu yola gedən xalq, dövlət qarşısında xəyanət edəcək. Ona görə bizim bütün daxili problemlərimiz Azərbaycanın daxilində həll olunmalıdır. Biz öz daxili problemlərimizi, siyasi çəkişmələri xaricə ixrac etməməliyik. Birincisi, bunun heç bir əhəmiyyəti yoxdur. Çünki bu gün dünyada elə bir qüvvə yoxdur ki, hansısa qərarı bizə aşılasın, yaxud da bizə nəyisə diktə edə bilsin. Belə qüvvə yoxdur və nə qədər ki, mən Prezidentəm, belə qüvvə olmayacaqdır. Ona görə bu, tamamilə mənasızdır. Azərbaycanı hansısa təzyiq altına salmaq cəhdləri, yaxud da ki, sanksiyalarla hədələmək - bütün bunların heç bir əhəmiyyəti yoxdur. Bu, iqtidara qarşı deyil, bu, dövlətə qarşı edilən cinayətdir və bunu heç kim unutmasın".

Göründüyü kimi, ölkə başçısı Azərbaycana olan beynəlxalq təhdidlərdən geniş söz açır. Bu xüsusda Prezident xüsusi olaraq qeyd edir ki, ölkənin bütün problemləri daxildə həll edilməlidir. Ölkəmizlə bağlı problemləri xarici auditoriya qarşısında müzakirə etməyin nə kimi ziyanı ola bilər?

Politoloq Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Prezidentin bu fikri ölkəmiz üçün böyük əhəmiyyət kəsb edir: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da altıncı çağırış Milli Məclisin ilk iclasındakı çıxışında Azərbaycanın daxili siyasi məsələlərinin həllini beynəlxalq aləmə çıxarmağın ziyanlılığı kimi bir fikir bildirdi. Daxili siyasi məsələlərin həllinin beynəlxalq təşkilatlar, xarici instansiyalara çıxarılmasının, ümumilikdə, bu problemlərin həllinə faydası yoxdur, digər tərəfdən də belə məqamlar bir sıra dairələrdə bu kimi halların bu və ya digər dövlətlər üçün təsir və ya təzyiq vasitəsi kimi istifadə olunması xülyası və imkanları yaradır. Əlbəttə, Azərbaycan dövləti və hökuməti bu kimi təsir və təzyiq alətlərini qəbul etmir və nəticə kimi bu mövzunun həlli bir müddət üçün gecikmiş olur.

Ölkələrin daxili problemləri daxili qanunvericilik və daxili siyasi iradə əsasında həll edilməlidir. Bu halda həmin məsələlərin cəmiyyət və dövlət üçün faydalı bir həll yolu tapıla bilər. Ümumiyyətlə, dövlətlərə qarşı tətbiq olunan siyasi, hüquqi və sair, daxili problemlərin həlli üçün onların hazırladığı beynəlxalq hesabatların, dinləmələrin təşkili kimi təsir alətləri özünü doğrultmur və ancaq beynəlxalq təşkilatlarda yurd salmış lobbi qrupları üçün əlavə yem funksiyasını daşıyır.

Belə qrupların bu məqamlar üzərindən fəaliyyəti isə üzv dövlətlərlə beynəlxalq təşkilatlar arasında fikir ayrılığına gətirib çıxarır, bu isə uzunmüddətli hesabda beynəlxalq təşkilatların mövcudluğuna əsaslar üçün hədə rolunu oynayır. Biz belə müzakirələr əsasında ölkəmizə necə təzyiqlərin edildiyinin dəfələrlə şahidi olmuşuq".

***Məhəmmədəli QƏRİBLİ***

# Belçikada Natəvanın heykəlinə qarşı vandalizm aktının ilhamvericisi şəxsən Paşinyandır

***Qasım Hacıyev:** ”Natəvanın Belçikadakı abidəsinə qarşı vəhşiliyin, vandalizm aktının törədilməsində ermənilər əsas iştirakçıdır və bu, Paşinyanın razılığı ilə həyata keçirilib”*

**Məlum olduğu kimi Belçikanın Vaterlo şəhərində Azərbaycanın böyük ədibi, sonuncu Qarabağ xanı Mehdiqulu xanın qızı Xurşidbanu Natəvanın abidəsinə qarşı vandalizm törədilib. X.Natəvanın abidəsinə qarşı vandalizm aktının kimlər tərəfindən törədildiyi dəqiq məlum olmasa da, heç şübhəsiz ki, burada erməni barmağının olması istisna deyil.**

Cinayət aktının Ermənistanın Baş naziri Nikol Paşinyanın Belçika səfəri zamanı törədilməsi isə bu şübhələri daha da gücləndirir.

Qeyd edək ki, Azərbaycan Xarici İşlər Nazirliyi Belçikanın Vaterlo şəhərində X.Natəvanın abidəsinə qarşı vandalizmin törədilməsinə münasibət bildirib. Nazirliyin Mətbuat Xidməti İdarəsinin rəisi Leyla Abdullayeva mətbuata açıqlamasında deyib ki, Belçikanın Vaterlo şəhərində 2016-cı ildə ucaldılmış ölkəmizin görkəmli şairəsi, Qarabağ xanının qızı X.Natəvanın abidəsinə qarşı vandalizmin törədilməsi ilə bağlı Vaterlo polisi tərəfindən cinayət işi açılıb. "Heykəl Vaterlo şəhərinin mühafizə edilən tarixi abidələri siyahısına daxildir və bu səbəbdən sözügedən hadisə polis tərəfindən araşdırılır.

Əlbəttə, bu vandalizmin Ermənistan Baş nazirinin Belçikaya səfəri zamanı baş verməsi diqqəti cəlb edir. Qeyd etmək istərdim ki, ölkəmizin Belçika Krallığındakı Səfirliyinin əməkdaşları dərhal hadisə yerinə gedərək yerli hakimiyyət orqanları ilə təmaslar qurublar. Məsələ səfirliyimizin nəzarətində saxlanılır və araşdırmanın nəticələri ilə bağlı ictimaiyyətə məlumat veriləcək", - L.Abdullayeva qeyd edib.

Burada əsas diqqətçəkən məsələ, dediyimiz kimi, olayın Paşinyanın səfəri zamanı baş verməsidir.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev "Bakı-Xəbər"ə bildirdi ki, böyük Azərbaycan şairəsi Natəvanın heykəlinə qarşı həyata keçirilən vandalizm aktı təsadüfi xarakter daşımır. Q.Hacıyev hesab edir ki, olay məqsədli şəkildə, özü də Paşinyanın və erməni lobbisinin razılığı, göstərişi ilə törədilib. Natəvanın Belçikadakı abidəsinin Qarabağın simvollarından biri olduğunu deyən Q.Hacıyevin sözlərinə görə, Natəvanın Qarabağ hökmdarının qızı, Qarabağ hökmdarı İbrahim xanın nəvəsi, Qarabağ xanlığının əsasını qoyan Pənahəli xanın nəticəsi olması beynəlxalq ictimaiyyətə, abidəni ziyarətə gələnlərə çox böyük informasiya verir. O qeyd etdi ki, Natəvanın abidəsini ziyarət edən hər bir əcnəbi onun Qarabağ xanının qızı olduğunu bilir və Qarabağ tarixi haqqında daha dərindən maraqlanır. Bu faktın da ermənilərə, xüsusən də faşizm siyasəti yürüdən Ermənistana böyük zərbə vurduğunu deyən Q.Hacıyevin sözlərinə görə, abidəyə qarşı vandalizm aktı da bundan qaynaqlanır: "X.Natəvanın Belçikadakı abidəsi Qarabağın simvollarından biri olmaqla yanaşı, həm də Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu təlqin edir. Əlbəttə, Natəvanın heykəlinin Qarabağın simvolu kimi diqqəti cəlb etməsini erməni lobbisi qətiyyən həzm edə bilmir. Dediyim kimi, Natəvanın abidəsi beynəlxalq aləmə Qarabağ həqiqətləri ilə bağlı çox dəqiq informasiyalar verir, bu da Ermənistanın illərdir apardığı saxta siyasətin ifşasında mühüm rollardan birini oynayır".

Bundan əlavə, Q.Hacıyev qeyd etdi ki, abidəyə qarşı vandalizm aktının baş verməsinin əsas səbəblərindən biri də Türkiyə və Rusiya arasında münasibətlərin istiləşməsidir. Onun sözlərinə görə, iki böyük dövlət arasında münasibətlərin yeni mərhələsi erməniləri əndişəyə salıb və buna görə də onlar mümkün qədər daha çox təxribat törətmək istəyirlər. "Sözsüz ki, Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təxribatçı siyasətin nəticəsində bu olay baş verib. Ermənistan Rusiya və Türkiyə arasında gedən danışıqlardan, iki dövlət arasındakı münasibətlərin isinişməsindən ermənilər hədsiz dərəcədə xoflanırlar. Bu gün erməni mətbuatında gedən yazılar da, diplomatların çıxışları da onların bu münasibətdən hədsiz dərəcədə narahat olduğunu göstərir. Düzdür, İdlibdə Türkiyə əsgərləri şəhid olsa da, hazırda Türkiyə ilə Rusiya arasında münasibətlət gərgin deyil. Erməni mətbuatı açıq şəkildə yazır ki, Rusiya və Türkiyə yaxınlaşması Dağlıq Qarabağ probleminin həllinə kömək ola bilər və Azərbaycanın işğal altında olan torpaqları geri qaytarılar. Ermənilər bunu bütün vasitələrdən istifadə edərək diqqətə çatdırırlar. Hesab edirəm ki, Natəvanın Belçikadakı abidəsinə qarşı vəhşiliyin, vandalizm aktının törədilməsində ermənilər əsas iştirakçıdır və bu, Paşinyanın razılığı ilə həyata keçirilib. Bilirsiniz ki, ermənilər birinci dəfə deyil ki, Azərbaycanın böyük şəxsiyyətlərinin abidələrinə qarşı vandalizm aktı törədirlər. Şuşa şəhərində Natəvanın, Üzeyir Hacıbəyovun və Bülbülün abidəsinin güllləyə tutulması faktdır və hazırda o abidə muzeydə saxlanılır. Natəvanın Belçikadakı abidəsinə qarşı vandalizm hərəkəti də bunun davamıdır. Burada başqa bir məqam da var. Ermənistanın faşizmi dövlət siyasətinə çevirməsini, Njdeyə və digər faşist əlaltılarına heykəl qoymasını Azərbaycan Prezidenti İlham Əliyev, eləcə də diplomatlarımız dəfələrlə ifşa ediblər. Onlar da Natəvanın abidəsinə qarşı vandalizm törətməklə həm də öz aləmlərində bizə cavab vermiş olublar. Fakt budur ki, ermənilər, Ermənistan hökuməti zaman-zaman vandalizmin, zorakılığın, faşizm ideologiyasının əsas ilham qaynağı olub" - deyə Q.Hacıyev bildirdi.

Q.Hacıyev hesab edir ki, Belçikanın əlaqədar qurumları tərəfindən bu fakt tam araşdırıldıqdan sonra bu işin ermənilər tərəfindən törədildiyi bir daha təsdiqlənəcək.



*”...Ermənistanın illərdir apardığı saxta siyasətin ifşasında mühüm rollardan birini oynayır”*

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

# 1993-cü ildən indiyədək dünya Qarabağ münaqişəsinin mahiyyətinə və tarixinə aid hansı faktları öyrənib?

## Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarına təcavüzü nəticəsində yaranan Dağlıq Qarabağ münaqişəsinin mahiyyətinin, onun tarixinə aid gerçəkliklərin dünya ictimaiyyətinə çatdırılması üçün dövlətimiz çox böyük işlər görüb.**

## I yazı

Sirr deyil ki, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünyaya çatdırılmasının əsas mərhələsi 1993-cü ildən, yəni Heydər Əliyev hakimiyyətə gəldikdən sonra başlanıb. Ona qədərki dövrdə Qarabağ həqiqətlərinin erməni yalanları ilə süslənmiş, aldadılmış beynəlxalq aləmə çatdırılması, demək olar ki, mümkünsüz olub. Bəzi xırda istisnaları nəzərə almasaq, deyərdik ki, 1993-cü ilə qədər bu istiqamətdə elə də geniş işlər görülməyib.

Gerçəklik budur ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünyaya çatdırılması işinin memarı Heydər Əliyevdir. "Bizim əsas problemimiz Ermənistanın Azərbaycana təcavüzünü aradan qaldırmaq, işğal olunmuş torpaqlarımızı azad etmək, respublikanın ərazi bütövlüyünü təmin etməkdir" - deyən Heydər Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsini əsas məqsəd kimi qarşıya qoyub.

Məlumdur ki, Azərbaycan Respublikası Konstitusiyasının 11-ci maddəsinin I hissəsində göstərilir ki, Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. Həmin maddənin II hissəsində isə göstərilir ki, Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan sektoru, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir.

Qeyd edilən maddənin III hissəsinə əsasən, Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə, Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə, Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 2-ci maddəsinin 4-cü hissəsinə əsasən, bütün üzv dövlətlər öz beynəlxalq münasibətlərində, hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və yaxud Birləşmiş Millətlər Təşkilatının məqsədlərilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və gücün tətbiqindən çəkinirlər. Beləliklə, dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığı prinsipi beynəlxalq hüququn bir prinsipi kimi qəbul edilib. Heydər Əliyev bununla bağlı deyib: "Hər bir ölkənin ərazi bütövlüyü, sərhədlərinin pozulmazlığı Birləşmiş Millətlər Təşkilatının sənədlərində təsbit edilmiş beynəlxalq hüququn sarsılmaz prinsipidir".

Bildiyimiz kimi, Azərbaycan torpaqlarının 20 faizi bədnam qonşumuz Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunub və erməni silahlı qüvvələri hələ də torpaqlarımızdan çıxmayıb. Erməni təcavüzü nəticəsində respublikamızın torpaqlarının 20 faizi işğal edilib, 900 yaşayış məntəqəsi zəbt edilib, 4366 sosial obyekt, 690 məktəb, 280 uşaq bağçası, 862 klub, 932 kitabxana, 1831 kino qurğusu, 855 məktəbəqədər müəssisə, 656 poliklinika, ambulatoriya, aptek və digər tibb müəssisəsi, xalqın ibadət yeri olan 10 məscid dağıdılıb.

Məlum olduğu kimi, indiki Ermənistandan qovulmuş soydaşlarımızın 380 kəndi elə keçirilib və bütün var-dövləti orada qalıb. Respublikamıza təxminən 50 milyard ABŞ dollarından artıq məbləğində ziyan dəyib.

Rəsmi qurumların, eləcə də ictimai təşkilatların verdiyi məlumata görə, Kəlbəcərdə olan qızıl yataqlarının Ermənistan Respublikası tərəfindən qanunsuz emal edilməsini, işğal olunmuş ərazilərdə kütləvi yanğınlar törədilməsini nəzərə alsaq, Azərbaycana dəymiş ziyan günbəgün artır.

Müstəqil Azərbaycan Respublikası torpaqlarının Ermənistan tərəfindən işğalının əsasının, əslində, 19-cu əsrin əvvəllərində qoyulduğu məlumdur. Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli Fərmanda deyildiyi kimi, 1813-cü və 1828-ci illərdə imzalanan "Gülüstan" və "Türkmənçay" müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırım Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

Sovet dönəmində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan Respublikasına birləşməsi haqqında Ermənistan rəhbərliyi tərəfindən vaxtaşırı cəhdlər edilib, lakin bu cəhdlərin qarşısı həmin vaxtlar alınmışdı. Ümummilli lider Heydər Əliyev 14 iyul 1969-cu ildə Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçildikdən sonra Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi üçün edilən cəhdlərin qarşısının alınmasında xüsusi prinsipiallıq göstərib.

Bu barədə Heydər Əliyevin aşağıdakı fikirləri xüsusilə maraqlıdır: "…1969-cu ildən Azərbaycana rəhbərlik etmişəm. O zaman da bu məsələlər qaldırılırdı. 1977-ci ildə SSRİ-nin Konstitusiyası qəbul olunarkən Konstitusiyanı hazırlamaq üçün komissiya təşkil edilmişdi. Komissiyaya o vaxtkı Kommunist Partiyasının Baş katibi Brejnev rəhbərlik edirdi və respublikaların nümayəndələri də, o cümlədən, mən də bu komissiyanın üzvü idim. Komissiya layihə hazırladığı dövrdə, təxminən bir il müddətində həddindən artıq təkliflər gəlmişdi ki, Dağlıq Qarabağ ayrılıb Ermənistana verilməlidir. Hətta, bir-iki dəfə bu məsələnin komissiyada baxılmasına cəhd olmuşdu".

Heydər Əliyev daha sonra demişdi: "Məni düzgün başa düşün, olan şeyi deyirəm. Mən o vaxt bunların qarşısını aldım. Amma qarşısını almaq da çətin idi. İradəmlə və Azərbaycan xalqının milli mənafelərini canımla, qanımla müdafiə edərək qarşısını aldım".

Heydər Əliyev SSRİ rəhbərliyində - Sov. İKP MK Siyasi Bürosunun üzvü, keçmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işlədiyi müddətdə erməni şovinistlərinin Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında cəhdləri qətiyyətlə dəf edilmişdi. Lakin keçmiş Sovet İttifaqında "yenidənqurma"nın




müəllifi M.Qorbaçovun məkrli siyasəti nəticəsində Heydər Əliyev "səhhətinə görə" ölkə rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra ermənilər və onların havadarlarının əl-qolu açılır. M.Qorbaçovun özünə iqtisadi məsələlər üzrə müşavir seçdiyi akademik A.Aqanbekyan 1987-ci ilin sonunda Fransanın nüfuzlu "Humanite" qəzetində Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi barədə bəyanatla çıxış edir və 1988-ci ilin fevralında məlum Dağlıq Qarabağ hadisələri başlayır.

Heydər Əliyev keçmiş Sov. İKP MK-nın 1989-cu ilin aprel ayının 25-də keçirilmiş Plenumunda Sov. İKP MK tərkibindən çıxarıldıqdan sonra ermənilər və onların havadarları xüsusilə əl-qol açırlar, artıq bu zaman məlum Dağlıq Qarabağ hadisələri intensiv surətdə genişlənir və dərinləşir.

1992-ci ildə ATƏT-in Minsk Qrupu yaranıb və Birləşmiş Millətlər Təşkilatı münaqişənin həllini ATƏT-in himayəsinə verib. ATƏT də Minsk Qrupunu yaradıb. Minsk Qrupuna 12 dövlət daxildir. Həmin vaxtdan 15 il keçməsinə və ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vaxtaşırı dəyişməsinə baxmayaraq, bu münaqişənin ədalətli həlli indiyədək təmin edilməyib.

Tarixçilər qeyd edirlər ki, Heydər Əliyev 15 iyun 1993-cü ildə hakimiyyətə qayıdışından sonra bütün fəaliyyəti boyu qondarma Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə, beynəlxalq hüquq normalarına uyğun ədalətli həllinə çalışıb. Lakin heç kəsdən gizli deyil ki, dünyada ikili standartlar mövcuddur.

Xatırladaq ki, BMT-nin Təhlükəsizlik Şurası Dağlıq Qarabağla bağlı 30 aprel 1993-cü il tarixdə 822 saylı, 29 iyul 1993-cü ildə 853 saylı, 14 oktyabr 1993-cü ildə 874 saylı və 11 noyabr 1993-cü ildə 884 saylı qətnamələr qəbul edib. Həmin sənədlərdə BMT Təhlükəsizlik Şurası, əslində, Dağlıq Qarabağın və ona bitişik bir sıra rayonların Ermənistan tərəfindən işğalını tanıyıb. Belə ki, BMT-nin Təhlükəsizlik Şurasının 30 aprel 1993-cü il tarixdə 822 saylı qətnaməsinin 1-ci bəndində göstərilir ki, atəşin biryolluq dayandırılması məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılması, eləcə də bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın son vaxtlar işğal edilmiş başqa rayonlarından dərhal çıxarılmasını tələb edir.

BMT Təhlükəsizlik Şurasının 29 iyul 1993-cü il tarixli, 853 saylı qətnaməsinin 3-cü bəndində göstərilir ki, bütün hərbi əməliyyatların təxirə salınmadan dayandırılmasını və münaqişədə iştirak edən işğal qüvvələrinin Azərbaycan Respublikasının Ağdam rayonundan və işğal olunmuş bütün digər rayonlardan dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Həmin qətnamənin 9-cu bəndinə əsasən, Şura Ermənistan Respublikası hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi ermənilərinin 822 saylı qətnamənin müddəalarına əməl etməsi və ATƏT-in Minsk Qrupunun təkliflərini həmin tərəfin qəbul etməsi məqsədilə öz təsirini göstərməyi davam etdirməyə təkidlə çağırır.

BMT Təhlükəsizlik Şurası 14 oktyabr 1993-cü il tarixli, 874 saylı qətnaməsinin 3-cü bəndinə əsasən, 822 və 853 saylı qətnamələrinin həyata keçirilməsinə dair təxirəsalınmaz tədbirlərin yeniləşdirilməsini alqışlayır. BMT kimi mötəbər beynəlxalq təşkilatın bu qətnamələri bu günə kimi icra edilməyib.

Nəhayət, BMT Təhlükəsizlik Şurasının 11 noyabr 1993-cü il tarixli 884 saylı qətnaməsinin 4-cü bəndində Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), (S/26522, əlavə) saylı qətnamələrinin yerinə yetirilməsini, hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal və ləngidilmədən dayandırılmasını, Azərbaycan Respublikasının işğal olunmuş rayonlarından qəsbkar qüvvələrin çıxarılmasını maraqlı tərəflərdən tələb edir.

Burada haqlı sual meydana çıxır. Əgər BMT-nin Təhlükəsizlik Şurası kimi mötəbər təşkilatın qətnamələri indiyə kimi icra edilmirsə, onda bu qərarlar kimin üçün və nəyə görə qəbul edilir?! Bütün bunlar dünyada hələ də beynəlxalq səviyyədə müxtəlif məsələlərin, o cümlədən, ərazi münaqişələrinin həllində ikili standartların mövcud olmasını bir daha təsdiq edir.

BMT-nin San-Fransisko şəhərində 26 iyun 1945-ci il tarixdə qəbul edilmiş Nizamnaməsinin 39-41-ci maddələrinə əsasən, Təhlükəsizlik Şurası iqtisadi münasibətlərin və dəmiryol, dəniz, hava, poçt, teleqraf, radio və digər rabitə vasitələrinin tamamilə və ya qismən dayandırılmasını və diplomatik münasibətlərin kəsilməsi kimi tədbirlərin tətbiq edilməsi barədə qərar qəbul edə bilər. Lakin BMT Təhlükəsizlik Şurasının həmin qətnamələri bu günə kimi Ermənistan tərəfindən yerinə yetirilmədiyi halda, bu ölkəyə qarşı heç bir sanksiya tətbiq edilməyib.

Tarixçilər vurğulayırlar ki, Heydər Əliyev Qarabağ həqiqətlərinin bütün dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq üçün var qüvvəsi ilə çalışıb və o istər dövlət başçıları, istərsə də xarici ölkələrdə olan Azərbaycan diasporunun nümayəndələri, iş adamları, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşlərində Dağlıq Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olması fikrini əsaslandırıb və buna da nail olub.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Köhnə deputatlardan kimlərinsə dövlət əleyhinə fəaliyyəti açılır - beynəlxalq təşkilatlarla sövdələşmə...

## *Qabil Hüseynli: "Hansısa millət vəkilinin xarici qurumla sövdələşməyə getməsi vətənə xəyanət anlamına gələ bilər"*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 10-da altıncı çağırış Milli Məclisin ilk iclasındakı çıxışında deputatlara olduqca ciddi bir mövzu ilə bağlı xəbərdarlıq edib: "Bütün deputatlara deyirəm, beynəlxalq təşkilatlarla heç bir sövdələşməyə getmək olmaz".**

Ölkə başçısı daha sonra qeyd edib ki, bütövlükdə, beynəlxalq təşkilatlar çərçivəsində bizim fəaliyyətimiz daha məqsədyönlü olmalıdır: "Orada bizi təmsil edən deputatlar fəal olmalıdırlar, turist kimi getməməlidirlər, sonra hesabat verməlidirlər ki, nə iş görmüsən, kiminlə görüşmüsən, hansı məsələni qaldırmısan. Yoxsa, bəzi hallarda bu, turist səfərlərini xatırladır. Getdik, görüşdük, oturduq, danışdıq, yedik, qayıtdıq. Özü də bəzi səfərlər, ümumiyyətlə, qəbuledilməzdir. Mən bu gün bu haqda çox danışmaq istəmirəm, amma bilirəm nə baş verir, hansı hadisələr baş verir. Ona görə biz beynəlxalq fəaliyyətimizin səmərəliliyini artırmalıyıq. O təşkilatlarda ki, bizə qarşı əsassız yanaşma var, bizə qarşı ittihamlar irəli sürülür, biz orada mübariz olmalıyıq. Yəni onların qarşısında yaxşı olmaq yox, dövlət, xalq qarşısında yaxşı olmaq lazımdır. Hansısa məsələni kəskinləşdirmək istəmirəm bəhanəsi ilə kənara çəkilmək yox, əksinə, öz sözünü demək lazımdır. Qərəzli yanaşmanı ifşa etmək lazımdır. Necə ki, mən daim bunu edirəm və kifayət qədər faktlar var. Bunu demək üçün siyasətçi olmaq lazım deyil. Adi vətəndaş bunu görür televiziyada. Baxın, bizə demokratiyadan dərs vermək istəyənlər hansı cinayətlər törədirlər. Avropanın dırnaqarası demokratiya beşiyi sayılan ölkələrdə xalqın gözü qarşısında, dünyanın gözü qarşısında dinc nümayişçiləri vururlar, əzirlər, gözlərini çıxarırlar, öldürürlər, həbs edirlər. Jurnalistləri əsassız ittihamlarla həbs edirlər, çürüdürlər onları. Göz qabağındadır, dinc nümayişçiləri itlərlə, atlarla dağıdırlar. Bir ölkədə yox, iki ölkədə yox, demək olar ki, bu, indi bizi tənqid etmək istəyən məkanda kütləvi hal alıbdır. Müsəlman miqrantlara qarşı baxın, necə münasibət göstərilir. Onları XXI əsrdə itlərlə əzirlər, qəfəsə salırlar. Sonra isə qəfəsə yemək parçaları atırlar, heyvan kimi. Budurmu münasibət?!

İndi də bütün vasitələrdən istifadə edib onları əzmək fikrindədirlər. Bəs o miqrantlar haradan yarandı? Nə üçün onlar yarandı? Nəyə görə öz ölkələrini tərk etdilər? Kim onların ölkələrinə basqın etdi? Kim o ölkələri məhv etdi? Kim sabitliyi pozdu? Kim milyonlarla qaçqının yaranmasına səbəbkar oldu? Ona görə kim bunu edibsə, qoy, onun acısını da çəksin. Nə üçün Türkiyə, bizim qardaş ölkəmiz 4 milyon qaçqını qəbul etməlidir, yedirməlidir, içirməlidir, milyardlarla pul xərcləməlidir? Bunları Türkiyəmi didərgin salıb? Yox. Onları didərgin salanlar gəlib onlara sahib çıxsınlar.

Bütün bunları demək lazımdır. Mən bu gün bu kürsüdən bunu deyirəm, açıq, heç kimdən çəkinmədən. Çünki mən haqlıyam və həqiqətə qarşı heç kim heç nə deyə bilməz. Əlbəttə, bax, görərsiniz, bu sözlərdən bir neçə gündən sonra yenə çirkin məqalələr çıxacaq, yenə hansısa bir qondarma təşkilat nəsə bəyanat verəcək ki, Azərbaycanda o, pisdir, bu, pisdir. Eybi yoxdur, qoy desinlər. Amma biz bu həqiqətləri deməsək, sabah bu, bizim başımızda sınacaq. Ona görə bunu deməliyik və siz də deməlisiniz. Mən bütün deputatlara deyirəm, heç bir sövdələşməyə getmək olmaz. Beynəlxalq təşkilatlarla işləmək lazımdır, biz də işləyirik, ancaq bizim maraqlarımız var və kifayət qədər arqumentlərimiz var. Ona görə mən sizi bu mübarizəyə çağırıram - həm Avropa Şurasında, həm ATƏT Parlament Assambleyasında, həm də bütün başqa təşkilatlarda. Beləliklə, hesab edirəm ki, bu istiqamətdə atılacaq addımlar bizim ölkəmizin mövqeyini daha da gücləndirəcək".

Göründüyü kimi, Prezident indiyə qədər fəaliyyət göstərmiş deputat korpusunun beynəlxalq əlaqələrin qurulması sahəsindəki fəaliyyətində ciddi nöqsanların olduğunu bildirib. Hətta xüsusilə qeyd edib ki, deputatlar heç bir beynəlxalq qurumla sövdələşməyə getməməlidirlər. Bunu deputatların gələcək fəaliyyətlərində nəzərə almaları vacib olan bir xəbərdarlıq kimi qəbul edə bilərik. Ancaq məsələyə bir qədər də məntiqlə yanaşdıqda iddia etmək olar ki, keçmişdə belə fəaliyyətlərə, sövdələşmələrə cəhdlər olub və məhz buna görə də ölkə başçısı bu cür açıq notla xəbərdarlıq edir. Maraqlıdır, deputatların xarici qurumlarda sövdələşməsi hansı formada ola bilər?

Sabiq dövlət müşaviri, politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Prezidentin toxunduğu məsələ olduqca ciddidir: "Hansısa millət vəkilinin xarici qurumla sövdələşməyə getməsi vətənə xəyanət anlamına gələ bilər. Bununla həmin adam təsir agenti funksiyasını yerinə yetirmək öhdəliyini üzərinə götürmüş olur. Bu da ağır dövləti cinayətdir. Belə əməllərə yol verən sadə vətəndaş belə bağışlanmır, onlara ən ağır formada cəza nəzərdə tutulur. Açığını deyim ki, mənim ağlıma gəlmir kimlərsə buna risq etsin. Prezident belə bir xəbərdarlığı təsadüfən etməz. Son zamanlar görünür ki, Azərbaycanda xüsusi xidmət orqanlarının fəaliyyətində də ciddi canlanma var. Əgər belə faktlar olubsa, çox ürəkbulandırıcı hadisədir. Eyni zamanda, ağır dövləti cinayətdir. Milli xəyanəti heç nə ilə kompensasiya etmək olmaz və bu hal bağışlana bilməz. İndiyə qədər belə faktlar olubsa, ona mütləq hüquqi qiymət verilməlidir. Bizim beynəlxalq qurumlarda bir çox nümayəndə heyətimiz fəaliyyət göstərir. Bu baxımdan da konkret kimin belə işlərlə məşğul olabilmə ehtimalını söyləyə bilmərəm. Millət vəkili milli simvoldur. Onlar da qırmızı xətti tapdalayırlarsa, burada söz tapa bilmirəm".

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Türkiyənin qorxunc PUA-ları ordumuzun ixtiyarına verilir - Ermənistan müharibə təhlükəsini artırır

**Bu günlərdə qardaş Türkiyə Silahlı Qüvvələrinin arsenalına yeni silah daxil edilib. Müdafiə Texnologiyaları Mühəndislik və Ticarət şirkəti tərəfindən tamamilə yerli imkanlar daxilində istehsal olunmuş "Karqu" adlı kamikadze dronlar qısa müddət əvvəl ordunun xidmətinə verilib.**

Şirkətin baş direktoru Murad İkinci "Karqu"nun 3 ildir istehsal olunduğunu və terrorla mübarizədə effektiv formada istifadə edildiyini bildirib. Onun sözlərinə görə, fırlanan qanadlarla yanaşı, sabit qanadlı yeni kamikadze "Alpaqu" pilotsuz uçuş aparatlarının sınaqları davam edir və yaxın zamanda ordunun xidmətinə veriləcək.

Qeyd edək ki, "Karqu" kiçikölçülü, üzərində silah daşıya bilən drondur. Xüsusi özəlliyi ondan ibarətdir ki, assimmetrik əməliyyatlarda və döyüşlərdə risqli bölgələrə daxil ola bilir və əsgərlər daxil olmadan öncə bölgəyə girərək təhdidləri aradan qaldırır. Hər hansı idarəetmə mərkəzinə ehtiyac duymur. Ümumiyyətlə, Türkiyənin Suriyada həyata keçirdiyi hərbi əməliyyatlardan sonra bəlli oldu ki, Ankara dron sahəsində böyük uğurlara imza atıb. Həmin dronlar vasitəsilə hərbi əməliyyatlar insan itkisini əhəmiyyətli dərəcədə azaldır. Eyni zamanda düşmənin texnika və canlı qüvvəsinin neytrallaşdırılması baxımından da bu dronlar, yaxud pilotsuz uçuş aparatları böyük əhəmiyyət kəsb edir. Belə bir vaxtda işğalçı Ermənistan üçün də ən böyük qorxulardan biri sözügedən dronların Azərbaycan ordusunda peyda ola biləcəyidir. Erməni analitik Yervand Bozoyan bunu mümkün sayır və qeyd edir ki, Ankara böyük zərbə gücünə malik dronlarını Azərbaycan tərəfinə də ötürəcək. O bunu həm də Rusiya və Türkiyə arasında baş verən proseslərin nəticəsi kimi qiymətləndirir:"Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan Moskva üçün yetərli qədər uyğun fiqurdur. İstənilən digər hökumət müzakirələrə daha az açıq və daha çox qərbyönlü olacaq. Bu o deməkdir ki, Moskva Ərdoğanla daha elastik və çoxsəviyyəli siyasət aparmalıdır. Amma Rusiya-Türkiyə münasibətlərində ən zəif halqa Dağlıq Qarabağ münaqişəsidir. Putinlə görüşdə gözlədiyindən daha az şey əldə edən Ərdoğan Qarabağ kartını oynayacaq. Türklər özlərinin Cənubi Qafqazdan olan qardaşlarına ən geniş yardımı göstərəcəklər. Ərdoğanın Bakıya səfəri zamanı tərəflər arasında hərbi-texniki müqavilə imzalandı. Buna əsasən, Ankara Bakını Suriyada uğurla istifadə edilən ən müasir pilotsuz uçan aparatlarla təchiz etməyə hazırlaşır. Ekspertlərin sözlərinə görə, cəmi 2 günə Türkiyə PUA-ları Suriyada 100-dən çox fərqli hərbi texnikanı məhv etdi. İndi bu silahları Azərbaycan özü də əldə etməkdə maraqlıdır. Elə Ankara da Bakının istəyinə yox deməyəcək".

Həqiqətən də Türkiyənin Suriyada tətbiq etdiyi zərbə və kəşfiyyat dronları, dünyanın bir çox ölkələri kimi, Azərbaycanı da yaxından maraqlandırır. Burada söhbət ilk olaraq "Bayraktar TB2", "Akıncı", ANKA, ANKA-S, "Alpagu", barəsində yuxarıda bəhs edilən "Karqu", "Sərçə" zərbə və kəşfiyyat PUA-larından gedir. Həmin silahlar bir sıra xüsusiyyətlərinə görə seçilir. Məsələn, ANKA 24 saat havada uça bilir. Bu pilotsuz uçuş aparatı gecə və gündüz, istənilən hava şərtlərində nəzarət, sabit və ya hərəkətli hədəfi aşkarlama, müəyyənetmə, təqib məqsədli, real zamanlı görüntü kəşfiyyatı vəzifələrini yerinə yetirir. Digər pilotsuz uçuş aparatlarından fərqli olaraq, ANKA-S PUA-larının fəaliyyətinə "Türksat" peyklərinin əhatə dairəsinə daxil olan istənilən nöqtədən, hava şəraitindən asılı olmayaraq, asanlıqla nəzarət edilə bilər. Məsələn, bu günlərdə Suriya ərazisində fəaliyyət göstərən ANKA-S PUA-ları Ankaradan idarə edilə bilir. Tamamilə yerli və milli istehsal olan ASELSAN-ın "Sərçə" kvadrokopteri də döyüş əməliyyatlarında özünü doğruldub. Tam avtonom hərəkət edə bilən PUA gecə zamanı ərazini müşahidə etməyə imkan verir. 4 mühərrikdən hər hansı birinin sıradan çıxması uçuşu əngəlləyə bilmir.

Türkiyənin "Baykar Makina" şirkəti isə qardaş ölkə üçün ən müasir PUA-lar istehsal edir. "Baykar" tərəfindən hazırlanan və inkişaf etdirilən ilk "Bayraktar" PUA-sı 2007-ci ildə Türkiyə Silahlı Qüvvələrinin silahlanmasına daxil edilib. Bu aparat həm də ilk ixrac edilən Türkiyə PUA-sıdır. Şirkətin istehsal etdiyi məhsullar arasında daha üstün taktiki-texniki xüsusiyyətlərə malik "Akıncı" zərbə PUA-ları xüsusilə seçilir. "Akıncı" zərbə PUA-sı təyin edilən marşrut üzrə hava kəşfiyyatı aparmaq, əldə edilən məlumatları idarəetmə məntəqəsinə tədqim etmək, yerüstü, suüstü və hava hədəflərinə müstəqil və ya operatorun komandası ilə silahlanmasında mövcud olan sursatlarla aviazərbələr endirmək üçün nəzərdə tutulur. PUA-ların havada olduqda belə tapşırıqları və ya hədəflərinin dəyişdirilməsi, həmçinin onların ləğv edilməsi mümkündür.

Bu PUA-nın istehsalı Türkiyənin müdafiə sənayesində son illərdə reallaşdırdığı ən mühüm layihələrdən biri hesab edilir. "Akıncı" PUA-ları kifayət qədər geniş rayonlarda uzun müddət davam edən vəzifələri yerinə yetirmək üçün nəzərdə tutulan və populyarlığı getdikcə artan HALE (High Altitude Long Endurance - Böyük Yüksəklikdə Uzun Müddət) sinifinə aiddir. Buna səbəb kimi onların ölçüləri ilə bərabər həm fəaliyyət radiusunun, həm uçuş yüksəkliyinin, həm də daşıdığı faydalı yükün kütləsinin hardasa pilotlu hərbi təyyarələrin göstəricilərinə yaxınlaşması göstərilir. HALE sinfindən olan PUA-lar dünyanın yalnız 4 ölkəsi tərəfindən istehsal edilir. "Akıncı" MAM-L, MAM-C, "Cirit", L-UMTAS, UMTAS, BOZOK, MK-81, MK-82, MK-83, HGK, KGK, Teber-82, "Gökdoğan", "Bozdoğan", SOM kimi lazer və ya idarəolunan raket və bombalardan istifadə edə bilir.

Azərbaycanın bu dronların alışını həyata keçirməsi isə tamamilə mümkün sayılır. Ekspertlər hesab edir ki, əslində bu dronların alışı vacibdir. Məsələn, Azərbaycan ordusunun silahlanması üçün əldə edilən ROKETSAN şirkətinin SOM qanadlı raketlərinin yaşlanan qırıcı aviasiya əvəzinə yeni "Akıncı"ya inteqrasiyası daha məqsədəuyğundur. Bu proses PUA-ya 180 kilometrə qədər məsafədən, nəinki Ermənistan Hava Hücumundan Müdafiə qoşunlarının məhvetmə zonasına daxil olmadan, hətta ona yaxınlaşmadan 230 kiloqramlıq döyüş başlığı ilə hədəflərə nöqtə zərbələri endirməyə imkan verə bilər. Digər tərəfdən isə, Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində idarəolunan aviasiya bombalarının "Akıncı" ilə tətbiqi də mümkündür. Belə olan halda qırıcılar üçün təhlükəli hesab edilən vəzifələrin eyni silahlara malik PUA-larla, həm 24 saat ərzində havada fasiləsiz müşahidə aparmaqla, həm də tam təhlükəsiz məsafədən yerinə yetirilməsi ordumuz üçün hərbi əməliyyatlar teatrında ciddi üstünlük qazandırar. Hazırda bu sinif PUA-ların əvvəlki versiyaları Qətər və Ukrayna tərəfindən əldə edilib. Azərbaycan, eləcə də Pakistan, İndoneziya, Filippin, Oman və Malayziya isə bu məhsullarla yaxından maraqlanır. Ekspretlər hesab edir ki, Türkiyənin "Akıncı" PUA ailəsinin yalnız alınması deyil, həm də Azərbaycanda istehsal sahəsinin yaradılması mümkündür. Ən azı o baxımdan ki, Azərbaycanın bu sahədə təcrübəsi də var. İsraillə belə istehsal həyata keçirilir. Belə ki, "Pegasus 120" adlanan PUA İsrailin "Aeronautics" şirkəti ilə müştərək əsasda "Azad Systems" müəssisəsində istehsal olunur. Hərbi və mülki təyinatlı logistik yüklər daşıyan "Pegasus 120" 75 kiloqramadək yükləri 40 kilometrə qədər məsafəyə daşıya və tam yüklü vəziyyətdə havada 45 dəqiqəyədək qala bilir.

Bundan başqa, məlumdur ki, İsrailin "Israel Aerospace Industries LTD" şirkəti Azərbaycanda nümayəndəlik açıb. Xatırladaq ki, "Israel Aerospace Industries" Azərbaycanla fəal əməkdaşlıq edir. Xüsusilə Azərbaycan şirkətdən "Naqor" PUA və digər avadanlıq alıb. Şirkət aviatexnika, kosmik peyklər, rabitə və kəşfiyyat üçün alət və avadanlıqların istehsalı, dünyada aparıcı PUA tərtibatçısı və istehsalçısıdır. Onlardan bəzilərinin dünyada analoqu yoxdur. Bundan başqa, məlumdur ki, Azərbaycan Silahlı Qüvvələri öz cəbbəxanasını İsrailin "Elbit Systems" şirkətinin istehsal etdiyi "SkyStriker" idarə olunan uçuş aparatları ilə zənginləşdirib. Azərbaycan ordusunun ixtiyarında artıq "Israel Aerospace Industries" şirkətinin istehsalı olan "Harop" və "Aeronautics Defense Systems" şirkətinin istehsalı olan "Orbiter 1K" birdəfəlik kiçik zərbə PUA-ları da var. 2016-cı ilin aprelində dördgünlük müharibənin gedişində həmin PUA-lardan erməni mövqelərinə zərbələrin endirilməsində istifadə edilib. "Harop"dan fərqli olaraq, "SkyStriker" və ADS "Orbiter 1K", demək olar ki, səssizdirlər, belə ki, elektrik mühərrikləri ilə hərəkətə gətirilirlər.

Bütün bunlar o deməkdir ki, Türkiyə də Azərbaycanla PUA sahəsində sıx qarşılıqlı əməkdaşlıq edə bilər. Azərbaycanın belə silahlara ehtiyacı müharibə aparan ölkə kimi yüksəkdir. O baxımdan ki, zərbə PUA-larının tətbiqi Hərbi Hava Qüvvələrinin pilotlu vasitələri üzərinə düşən döyüş yükünün azaldılmasına imkan verir. Digər tərəfdən isə, bu PUA-lar qırıcılara qarşılıqlı əlaqədə paralel hava əməliyyatlarında iştirak edərək ordumuzun hava komponentinin zərbə gücünü artırmağa da imkan verə bilər. Hər halda, bir məqam dəqiqdir ki, qardaş ölkədən yeni PUA-ların alınması Azərbaycana hərbi müstəvidə əlavə üstünlüklər qazandıracaq. Elə düşməni də lərzəyə salan budur.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

## Merkel xəbərdarlıq etdi - Almaniya əhalisinin 60-70 faizi koronavirusa yoluxa bilər

*Türkiyədə koronavirusa ilk yoluxma halı qeydə alındı*

**Çinin Ubey əyalətinin Uhan şəhərində ortaya çıxan və sürətlə dünyada yayılan yeni koronavirusdan (COVİD-19) ölənlərin sayı 4,200-ü keçib, yoluxanların sayı 119 min 241-ə çatıb. Sağalanların sayı isə 66 582-dir.**



Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, Çində virusun ölkə daxilində yayılmasında ciddi azalma müşahidə edilir. Bununla birlikdə, virusun dünyada yayılması böyük narahatlıq və qorxu yaradır. Virus hazırda dünyanın 118 ölkəsinə yayılıb və ən çox da İtaliyanı əsl xaos ölkəsinə çevirib. Avropada epidemiyadan ən çox əziyyət çəkən ölkə olan İtaliyada 60 milyon insan karantin altına alınıb.

Koronavirusun yayılmasının qarşısını almaq üçün ölkə daxilində sərt tədbirlər və məhdudiyyətlərin tətbiq olunduğu İtaliyada ölənlərin sayı 631-ə çatıb. Yoluxanların sayı 10 mini keçib. Bazar ertəsi axşam İtaliyanın Baş naziri Cüzeppe Kontenin imzaladığı sərəncam 60 milyonluq ölkədə insanların hərəkətliliyini məhdudlaşdırmaq və virusun bu şəkildə yayılmasının qarşısını almağı hədəfləyir.

BBC xəbər verir ki, Baş nazir Konte "evdən çıxmamaq qərarı" kimi xarakterizə etdiyi yeni tədbirlər paketini açıqladıqdan sonra sosial mediada bu mesajı paylaşıb: "İtaliyanın gələcəyi bizim əlimizdədir. Gəlin, hamımız əlimizdən gələni edək, cəmiyyət naminə bir şeydən vaz keçək. Söhbət yaxınlarımızın, valideynlərin, uşaqların, nənə və babaların sağlamlığından gedir. "Mən evdə qalıram" sərəncamını imzaladım".

Digər tərəfdən, hökumət koronavirusdan təsirlənənlərə dəstək olmaq üçün kredit borcları və hesab-fakturalar kimi ödənişləri dayandırmağı planlaşdırır. İqtisadiyyat nazirinin müavini Laura Kastelli yeni bir sərəncamda "fərdi şəxslər və ailələr" üçün ipoteka və vergilər kimi ödənişlərin dayandırılacağını söyləyib.

İranda yeni növ koronavirusdan ölənlərin sayı 354, yoluxanların sayı isə 9 minə çatıb. Digər tərəfdən, İranda "spirt koronavirusun qarşısını alır" deyib spirtli içki qəbul edib ölənlərin sayı 67 nəfərdir.

Türkiyədə də koronavirusa ilk yoluxma halı qeydə alınıb. Səhiyyə naziri Fəxrəddin Koca şübhəli şəxsin test nəticəsinin müsbət çıxdığını açıqlayıb. O, xəstənin Avropadan qayıtdığını deyib.

"O tam təcrid edilib. Xəstənin ümumi vəziyyəti yaxşıdır. Onun ailəsinin bütün üzvləri, onunla təmasda olmuş şəxslər nəzarət altındadır və hər biri şübhəli hesab olunur", - Koca əlavə edib.

İngiltərədə, Səhiyyə Nazirliyi nəzdində xəstələrin təhlükəsizliyindən cavabdeh dövlət naziri Nadine Dorriesdə koronavirus aşkar edilib. Dorries bu yaxınlarda Baş nazir Boris Consonun qatıldığı qəbulda iştirak edib və keçən həftə parlamentdə yüzlərlə millət vəkili ilə görüşüb.

İngiltərədə bu günə qədər, Nadine Dorries də daxil olmaqla 382 nəfərdə koronavirus aşkarlanıb. Ölkədə virus nəticəsində 6 nəfər ölüb.

ABŞ-da koronavirusa yoluxanların sayı 981 nəfərdir. Virusdan ölənlərin sayı 30 nəfərə çatıb. Ən çox yoluxma halına Nyu Yorkda rast gəlinib. Birləşmiş Millətlər Təşkilatının şəhərdəki Baş Qərargahı koronavirusa görə ziyarətçilər üçün bağlanıb. ABŞ Demokratlar Partiyasının lideri Çuk Şumer koronavirus testlərində geridə qaldıqlarına dair xəbərdarlıq edib.

Moskvada koronavirus səbəbilə 5 mindən çox insanın qatılacağı kütləvi tədbirlərin, mitinqlərin, futbol matçlarının və etiraz aksiyalarının keçirilməsi qadağan olunub.

Gürcüstanda "COVİD-19" aşkarlanan insanların sayının 15-ə çatdığı bildirilir. Koronavirus tədbirlərinin artırıldığı Ukraynada isə millət vəkillərinə müvəqqəti olaraq xaricə səyahət qadağan edilib.

Koronavirusa 26 yoluxma halı qeydə alınan Polşada hökumət virusun yayılmaması üçün məktəbləri, muzeyləri və kinoteatrları bağlamağa hazırlaşır.

Almaniya kansleri Angela Merkel ölkədə yaşayan insanların 60-70 faizinin koronavirusa yoluxacağı ilə bağlı xəbərdarlıq edib. Səhiyyə naziri Jens Spahn də Merkelin açıqlamalarını dəstəkləyib. Merkelin açıqlamalarına görə, 82 milyon əhalisi olan Almaniyada 50-60 milyon insanın koronavirusdan əziyyət çəkməsi ehtimalı var.

Koronavirusa məruz qalanların 80 faizinin bunun öhdəsindən gələ biləcəyini söyləyən səhiyyə naziri 65 və daha yuxarı yaşlarda olanlar üçün ciddi bir problem ola biləcəyini deyib. Nazir bunun üçün əlavə 28 min çarpayılıq yer ayrıldığını açıqlayıb.

Almaniyada koronavirusdan indiyə kimi iki nəfər ölüb. Son məlumata görə, Berlində gələn ayın əvvəlinə kimi 1000 nəfərdən artıq insanın iştirak edəcəyi bütün tədbirlərin keçirilməsi qadağan olunub.

**Azərbaycanın işğal olunmuş ərazilərində bu ayın sonu keçirilməsi nəzərdə tutulan "parlament və prezident seçkiləri" separatçı rejimlə Nikol Paşinyan iqtidarı arasında münasibətlərin daha da gərginləşməsi ilə müşayiət olunur.**

# "Qarabağ klanı" ilə Paşinyan iqtidarı arasında qarşıdurma kəskinləşir - Qarabağda vətəndaş toqquşması real olacaq...



Belə görünür ki, Qarabağda keçirilən "seçkilər" Ermənistanın daxili siyasətinə də ciddi təsir edəcək. Məsələ burasındadır ki, sözügedən proses "Qarabağ klanı" və Nikol Paşinyan arasındakı savaşın kulminsasiya mərhələsi sayılır.

Hazırda görünən budur ki, sabiq prezident Serj Sarkisyan və Qarabağ separatçılarından olan Vitali Balasanyan işğal bölgəsində Paşinyana qarşı siyasi cəbhə formalaşdırıb "hakimiyyəti" öz əllərində saxlamağa çalışır. Həbsdə olan Robert Köçəryan da bu prosesə dəstək verir. O, Balasanyanın separatçıların yeni rəhbəri olmasını istəyir. Paşinyan isə fərqli mövqedədir. Ekspertlərin fikrincə, Paşinyan separatçı rejimin başına öz adamını gətirə bilməsə, "Qarabağ klanı" öz əlini gücləndirmək üçün fürsət əldə edəcək, onu hakimiyyətdən uzaqlaşdırmaq istiqamətində aparılan işi genişləndirəcək. İndilikdə isə klan əsas müqaviməti məhz zəbt edilmiş ərazilərdə qurub. "DQR"in "prezidentliyinə namizəd" Bella Lalayan bildirir ki, Paşinyan işğal altındakı ərazilərdə istəyinə nail ola bilməyəcək. Onun sözlərinə görə, uzun müddətdir Ermənistanın xarici siyasətinin inkişaf kursunu müəyyənləşdirən "Qarabağ klanı" meydanı döyüşsüz tərk etmək niyyətində deyil. Separatçı rejim nümayəndəsi qeyd edib ki, Ermənistanda davam edən proseslər Qarabağdakı rejimin həyati maraqlarına təsir göstərir:"Xüsusilə bu klandan çıxmış, barəsində cinayət işi açılan keçmiş prezidentlər Robert Köçəryan və Serj Sarkisyan məsələsində bu özünü büruzə verir. Bir "məmur" olaraq Qarabağın keçmiş və indiki "prezidentləri"ni Robert Köçəryanın məhkəməsində göründə Ermənistan hökumətini tənqid etdim. Mən bu səhnəni həzm edə bilmədim". Lalayan separatçı rejimin Ermənistanda baş verənləri diqqətlə izlədiyini və İrəvanın zərərli hərəkətlərini dəf etmək üçün lazımi tədbirləri görəcəklərini bildirib. Elə bu da separatçı rejimlə Paşinyan iqtidarı arasında ciddi toqquşmanın olacağının ilk siqnalları sayılır.

Separatçı rejimin keçmiş "xarici işlər naziri" Arman Məlikyan da Qarabağda toqquşmaların olacağını hesab edir. Onun fikrincə, "prezidentliyə güzəştli namizəd" çıxmayacaqsa, Qarabağda vətəndaş toqquşması real olacaq:"Qarşıdurma olacaqsa, bu, Azərbaycanın əlini gücləndirəcək və daha ciddi risqlər yaranacaq". Erməni ekspert Vaxram Ağacanyan da bildirib ki, Qarabağda inqilabdan əvvəlki gərginlik hökm sürür:"Qarabağda Paşinyana yaxın olan qüvvələr mövcud rejimdən narazılıqlarını bildirmək üçün küçələrə çıxmağa hazırlaşır. Artıq "Qarabağ İnqilab Partiyası" ermənilərə müraciət edərək, Bako Saakyan rejiminə qarşı kütləvi itaətsizliyə çağırır. Hazırda Bako Saakyana qarşı sui-qəsddə ittiham olunan general Samvel Babayanın aşağıdakı fikirləri bu mənada təsadüfi xarakter daşımır:"Artıq susmayacam. Qarabağda yaşayanlar illərdir kredit dəliyindən çıxa bilmir. Saakyan rejimi Qarabağ ermənilərini əsarətdə saxlayır. İnsanlar illərdir banklara olan ən kiçik borclarını belə geri ödəmək gücündə deyillər. İnsanların ən adi istehlak kreditini götürmək üçün az qala özlərini girov qoymaq məcburiyyətində qalırlar". Vəziyyətin xaotik səviyyəyə çatdığını görən Saakyan rejimi Qarabağda kütləvi həbslərə başlayıb. Həbs edilənlərin əksəriyyətinin taleyi naməlumdur. "Qarabağ İnqilab Partiyası" və onun tərəfdarları Bako Saakyanın istefasını tələb edir. Etirazçıların sırası günbəgün artır. Görünən budur ki, hansısa sirli əl Qarabağda aranı qarışdırmağa başlayıb. İnsanlar yeni başçı və yeni hakimiyyət istəyirlər". Amma zəbt edilmiş ərazilərdə separatçıların rəhbərliyinə, o cümlədən "Qarabağ klanı"na qarşı çıxanların mövqeyi o qədər də güclü deyil. Bunun əvəzində "Qarabağ klanı" Ermənistanın özündə Paşinyana qarşı daha sərt gedişlər etməyə çalışır. Belə ki, onların iştirakı ilə Ermənistanda Paşinyana qarşı siyasi ittifaq qurulur. "Çiçəklənən Ermənistan" partiyasının lideri Hagik Tsarukyan və Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri Artur Vanetsyan Paşinyna qarşı anlaşma əldə edib. Vanetsyan isə, son məlumatlara görə, Kremlin adamıdır və bu ittifaqa eks-baş nazir Karen Karapetyanın da qoşulacağı gözlənir. İttifaqın əsas üzvləri sırasında yenə Rusiyaya bağlı olan "Qarabağ klanı" da yer alır. Ermənistanın "İrates" nəşri isə yazır ki, Paşinyanın komandasında yer alanların bir çoxu da artıq baş nazirə qarşı olanlarla bir sırada yer almaq niyyətindədir:

**"Elə bu səbəbdəndir ki, Paşinyan daha tez-tez bildirir ki, dövlət idarəetmə sistemi inqilaba müqavimət göstərir. Əslində, nəinki bütün sahələrdə "inqilab"ın başa çatması, həmçinin dövlət sisteminin fərqli bir məntiqlə işləməyə başlaması Paşinyanı narahat edir. "Mənim addımım" fraksiyasında olduğu kimi, idarəetmə dairələrində də Paşinyanın tərəfdarları yoxdur". Beləvəziyyətdən də "Qarabağ klanı" maksimal dərəcədə istifadə edib Paşinyanı devirəmyə çalışır.**

***Nahid SALAYEV***

# Qlobal neft qiyməti böhranı və Azərbaycan iqtisadi-maliyyə sisteminin etibarlı təhlükəsizlik yastıqları...

***Vüqar Bayramov:** "2014-cü ildən etibarən biz qeyri-neft sektorunun inkişafı ilə bağlı fəaliyyətin daha sistemli həyata keçirilməsini müşahidə edirik"*

**Məlum olduğu kimi, son günlər dünyada baş verən siyasi və iqtisadi böhran özünü neftin qiymətində göstərir. Neftin dünya bazarında ucuzlaşması Azərbaycan neftinə də təsirsiz ötüşməyib. Məsələ ondadır ki, OPEC+ ölkələri arasında istehsal həcminin azaldılması ilə bağlı fikir ayrılığı səbəbindən dünya bazarında neftin qiyməti kəskin düşüb.**

Ancaq nəzərə almaq lazımdır ki, neftin ucuzlaşmasının təsirlərini neytrallaşdırmaq üçün Azərbaycan bir sıra tədbirlər görür. Məsələ ondadır ki, Nazirlər Kabinetinin operativ iclasında dünya bazarında xam neftin qiymətinin düşməsinin iqtisadiyyata təsiri müzakirə olunub. Azərbaycan hökuməti neqativ iqtisadi təsirlərin neytrallaşdırılması üçün preventiv tədbirlər planlarına malikdir. Neftin qiymətinin kəskin ucuzlaşmasının tədiyə balansına təsirlərinin proqnoz ssenariləri mövcuddur.

Didər tərəfdən, başqa faktorları da nəzərə almaq lazımdır. Həmin faktorlar ondan ibarətdir ki, Azərbaycan kiçik ölkədir. Bu səbəbdən qlobal böhranın bizi dərhal vura bilməsi mümkün deyil. Bizim üçün indiyədək əsas tələb bu olub və indi də bundan ibarətdir ki, ölkəmizin gəlir mənbələrinin sayı artsın, bu sahədə şaxələndirilmiş vəziyyətə nail olaq. Bu istiqamətdə də sistemli islahatlar həyata keçirilir. Neftin qiyməti bizdə dövlət büdcəsinə birbaşa təsir etmir. Ortada Dövlət Neft Fondu, yəni "təhlükəsizlik yastığı" var. Neftin qiymətinin təsirini ilk olaraq məhz adıçəkilən bu qurum üzərinə götürür. 2020-ci ilin dövlət büdcəsi gəlirlərinin 11350,0 milyon manatı və ya 47,0 faizi ARDNF-dən transferdir. Bu məbləğin köçürülməsi neftin dünya bazar qiymətlərinin səviyyəsindən asılı olmayaraq, həyata keçiriləcək. Yəni hər il olduğu kimi. Beləliklə də dövlət büdcəsinin icrasında heç bir qeyri-sabitlik ortaya çıxmayacaq. Bunu 2015-2016-cı illərdəki təcrübə də sübut edib. Belə ki, həmin illərdə neftin dünya bazar qiymətləri hətta 40 dollardan da aşağı düşsə də, ölkəmizdə dövlət büdcəsinin icrasında heç nə yarımçıq saxlanmadı. Bundan başqa, bu il Azərbaycanın dövlət büdcəsində neftin qiyməti 55 ABŞ dolları götürülüb. Keçən il isə bu, 60 dollar idi. Bu vəziyyətdə hökumət özü üçün risqi artırmadı, əksinə, azaltdı. Amma hazırda qiymət 30 dollar həddinə qədər ucuzlaşıb. Başqa bir tərəfdən, ölkəmizin 52 milyard dollardan yuxarı xarici valyuta ehtiyatları var. Bu isə ÜDM-in həcmini 8 faizdən çox üstələyir. Odur ki, bir sıra makroiqtisadi göstəricilərimizin neftin dünya bazar qiymətlərinin uzunmüddətli şəkildə 30 dollar səviyyəsində qalmasına dayanıqlı tab gətirəcəyi azı bu il üçün heç bir şübhə doğurmamalıdır.

Başqa bir tərəfdən, iqtisadi inkişafın davamlılığı təmin olunub. Əvvəlki illərdə olduğu kimi, bu il də müsbət inkişaf dinamikası davam edir. Xüsusən də iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı sürətləndirilir. Monetar və fiskal tədbirlər birbirini tamamlayır. Milli iqtisadiyyatın inkişaf xüsusiyyətlərini və perspektivlərini ehtiva edən çevik dövlət tənzimlənməsi tətbiq edilib. Bütün bunlardan çıxış edərək o qənaətə gəlmək olar ki, neftin qiymətində yaşanan təbəddülatlar Azərbaycan iqtisadiyyatı üçün ciddi problem yaratmayacaq. Çünki yuxarıda göstərildiyi kimi, ölkənin iqtisadi-maliyyə sisteminin etibarlı təhlükəsizlik yastıqları mövcuddur.

Maraqlıdır, bəs ekspertlər bunu necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən millət vəkili Vüqar Bayramovun fikrincə, narahatlığa əsas yoxdur: "Neftin dünya bazar qiymətinin aşağı səviyyədə qalması Azərbaycan üçün qeyri-neft sahəsinin inkişafı məsələlərini daha da aktuallaşdırır. Düzdür, 2014-cü ildən etibarən biz qeyri-neft sektorunun inkişafı ilə bağlı fəaliyyətin daha sistemli həyata keçirilməsini müşahidə edirik. 2019-cu ildə iqtisadiyyatın leqallaşdırılması dövlət büdcəsinə əlavə 1 milyard manat vəsaitin daxil olmasına imkan verdi. 2020-ci ilin ilk iki ayında qeyri-neft sənayesində 20 faizdən artıq artım qeydə alınıb. Ümumdaxili məhsulda 6,5 faiz artım olub. Xüsusən qlobal şokların aktiv olduğunu nəzərə alsaq, hökumət üçün əsas prioritet idxaldan asılılığın aradan qaldırılması və idxalın minimumlaşdırılmasıdır. Xüsusən də ərzaq məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsidir. Düşünürəm ki, 2020-ci il bu baxımdan Azərbaycan üçün vacib illərdən olacaq. Son açıqlamalar da göstərir ki, islahatların dərinləşməsi, həm də, bütövlükdə, qeyri-neft sektorunun inkişafı ilə bağlı yeni proqramların həyata keçirilməsi nəzərdə tutulur. Bunlar həm iqtisadi, həm də sosial proqramlardır.

**Məqsəd də ondan ibarətdir ki, neftin dünya bazar qiymətinin aşağı səviyyədə qalması və gələcəkdə xarici bazarlarda baş verən şokların Azərbaycan iqtisadiyyatına təsirlərini minimumlaşdırmaq mümkün olsun. Təbii ki, bu, zaman tələb edən bir prosesdir. "Strateji yol xəritəsi" bu qəbildən hesablanmış planlaşdırmalardan biridir. Artıq yeni qlobal çağırışlar fonunda daxili bazarın, daxili istehsalın genişləndirilməsi daha da prioritetdir. Güman edilir ki, 2020-ci ilin növbəti aylarında da iqtisadi islahatlara geniş yer veriləcək. Xüsusən də yerli istehsalın inkişafına daha da önəm veriləcək".**




*"2020-ci ilin ilk iki ayında qeyri-neft sənayesində 20 faizdən artıq artım qeydə alınıb"*

***Vidadi ORDAHALLI***

# Rusiya və Səudiyyənin "dollar-neft müharibəsi"nin uzun sürəcəyi proqnoz edilir

**Neft ətrafında baş verən son olaylar bir sıra ölkələrdə milli valyutaların dəyərdən düşməsi ilə müşayiət olundu. Xüsusən də dollara qarşı ucuzlaşma özünü aydın göstərdi. Amma nə qədər qəribə olsa da, yaxın tezlikdə tamamilə əks proses də yaşana bilər.**

Belə ki, neftlə bağlı baş verənlər yaxın tezlikdə dolların özünün çökməsinə, digər ölkələrin valyutasının isə bahalaşmasına rəvac vermək iqtidarındadır. Hətta bəzi ekspertlər bütün bunları Rusiyanın və bir sıra neft ölkələrinin dollara qarşı yeni böyük oyunu kimi də qiymətləndirir.

Bu barədə danışmazdan öncə qeyd edək ki, hazırda baş verənlər Rusiya ilə Səudiyyə Ərəbistanı arasında neft çəkişməsinin hələ müəyyən müddət davam edəcəyini göstərir. Hər iki tərəf neft hasilatını artırmaqla, həm qiyməti aşağı saxlayır, həm də bir-birinə güzəştə getmək niyyətində olmadıqlarını göstərir. "The Wall Street Journal"a Neft İxrac edən Ölkələr Təşkilatında (OPEC) olan mənbələr bildirib ki, indi Səudiyyə Ərəbistanının "Saudi Aramco" neft korporasiyasının neftin qiymətini kəskin azaltması Rusiyanın bu enerji daşıyıcısı üzrə dünya bazarındakı mövqeyinin zəifləməsinə yönəlib:"Bu, Rusiya bazar seqmentinin payını ələ keçirmək üçün təcavüzkar bir kampaniyanın elementidir". Qeyd edək ki, "Saudi Aramco" rəhbərliyi ABŞ-a neft tədarükünün qiymətini bir barrel üçün 7, Şimali Avropa ölkələri üçün 8, Cənub-Şərq ölkələri üçün 6 dollar ucuzlaşdıracağı barədə xəbərdarlıq edib.




Rusiyanın energetika naziri Aleksandr Novak isə bildirib ki, ölkəsi neft istehsalını yaxın müddətdə gündəlik 250-300 min barrel səviyyəsində, ümumiyyətlə isə 500 min barrel artıra bilər. Novak onu da etiraf edib ki, Rusiya həqiqətən də OPEC+ razılaşmasından çıxmaq ssenarisini hazırlayırdı. Nazir bununla da Rusiya tərəfinin neft müqaviləsinin pozulması ilə bağlı planının olduğu barədə qeyri-rəsmi məlumatları təsdiq edib. Novak qeyd edib ki, neft bazarındakı hazırkı vəziyyət proqnozlaşdırılmış çərçivədədir. Hazırda reallıq budur ki, Moskvanın Ər-Riyadın addımına sərt reaksiya verməsi nəticəsində Səudiyyə Ərəbistanı və Rusiya neftdə uzun və dağıdıcı qiymət müharibəsinə başlamaq üçün addımlar atır. Kreml mübahisənin dağıdıcı təsirlərinə baxmayaraq geri çəkilmir. Nəticədə 1991-ci il Körfəz müharibəsindən bəri neftin qiymətində ən böyük azalma, neft şirkətlərinin milyardlarla dollar dəyər itirməsi və karbohidrogen resursdan asılı ölkələrdə istiqraz faizlərinin sürətli şəkildə artması qeydə alınır. Bütün bunlar mübahisənin təkcə birinci günündə baş verib. Beynəlxalq Enerji Agentliyinin icraçı direktoru Fatih Birol isə qeyd edir ki, neft bazarında "rus ruleti" oynamaq ağır nəticələrə səbəb ola bilər. O əlavə edib ki, İraq, Anqola və Nigeriya kimi ölkələrin sabitliyinə təhlükə yaranır, hətta bəzi neftdən asılı ölkələr səhiyyə kimi zəruri xərcləri ödəməkdə çətinlik çəkə bilər. Şirkətlərin "qara qızıl"ın aşağı qiyməti səbəbindən maliyyə təzyiqinə məruz qalmaları fonunda ABŞ-da şist nefti hasilatındakı güclü artım da yavaşlaya bilər. Əslində, elə Rusiyanın da əsas istəyi budur. Moskva ABŞ şist neft hasilatçılarının sıradan çıxması, onların borclarını qaytara bilməməsi, bununla ABŞ birja bazarının və bankların çökməsini istəyir. Çünki aşağı qiymətlər halında ABŞ-ın şist neft hasilatçıları maliyyə cəhətdən daha çətin duruma düşür və müflis olurlar. Belə vəziyyət isə ABŞ iqtisadiyyatına zərbə sayılır və dollar üçün böyük təhdiddir. Çünki bu halda dollar kəskin şəkildə ucuzlaşa bilər. Bu durumda o da məlum olub ki, Rusiyanın ən böyük neft istehsalçısı "Rosneft" OPEC+ sazişinin müddəti bitən vaxtdan, yəni bu ayın sonundan etibarən hasilatını artırmağı planlaşdırır. O da məlumdur ki, Rusiya qiymətin düşməsini kompensasiya etmək və rubla dəstək vermək üçün 150 milyard dollara çatan Rifah Fondundan da istifadə edə bilər. Maliyyə Nazirliyi bu ehtiyatların neftin qiymətinin 25-30 dollara düşəcəyi zaman yaranacaq itkiləri 6 ildən 10 ilədək bir müddət üçün kompensasiya edə biləcəyini bildirib.

Məşhur iqtisadçı Petr Svoik də qeyd edir ki, neftin qiymətinin kəskin azalması əslində böyük oyundur: "Dünya maliyyə bazarına, daha konkret desək, ABŞ dollarına qarşı hücum var. 2008-ci ilin dünya iqtisadi böhranı ABŞ bazarındakı maliyyə böhranından başlamışdı, ondan sonra da başqa məsələlər, o cümlədən neftin ucuzlaşması meydana çıxdı. İndi isə hamısı tam əksinə gedir. Əvvəlcə koronavirus çıxdı və bütün iqtisadiyyatı yavaşlatdı, ən əsası da dollar piramidasını bəsləmək imkanlarını azaltdı. İndi də Rusiya əvvəlcə ABŞ şist neftini bazardan sıxışdırıb çıxartmaq üçün neftin qiymətini erkən azaltmaq yönündə oyuna başlayır, daha sonra qaz bazarının növbəsi çatacaq. Bu ucuzlaşdırma oyunu yalnız ABŞ-dakı şist nefti hasilatının tam axırına çıxandan, bu sahədə çalışan şirkətlərin hamısı müflisləşəndən sonra başa çatdırıla bilər". Onun sözlərinə görə, belə olan halda neftin qiyməti 30-40 dollara çatacaq:"Hər halda, ABŞ şist neftini sıxışdıracaq qiymət həddi olmalıdır. Bu qiymət uzun müddət saxlanılacaq, Rusiya üçün belə qiymət məqbuldur. Müharibə neft bazarı uğrunda yox, maliyyə bazarı uğrundadır". Ekspert həmin müharibəni ayrı-ayrı ölkələrin deyil, ölkələr daxilindəki elit zümrələrin apardığını diqqətə çatdırıb:"Bu müharibənin əsas mərkəzləri kimi Vaşinqton, Brüssel, London, Moskva rol oynayır. Təxmini ehtimala görə, əvvəlcə ümumdünya dollar piramidası çökdürüləcək, sonra isə qaliblər yeni oyun qaydalarını təyin edəcəklər. İqtisadi baxımdan bölünmüş o yeni dünyada valyuta hesablaşmalarının daha səmərəli, hamı üçün məqbul olan üsullarını, yəni təbii ki, rəqəmli və blokçeyn texnologiyalarına əsaslanan, banklardan və sələmçilikdən uzaq üsullarını irəli sürənlər liderliyə də yiyələnəcək". Ekspert, bununla yanaşı, ənənəvi iqtisadi gücləri də hesabdan silməməyi tövsiyə edib:"Postdollar dünyasında təbii sərvətlərə malik ölkələr qalanlar üzərində şərtsiz üstünlüyə malik olacaq. ABŞ təbii sərvətləri ilə evində oturub Avropa üçün tədarükçü rolunu qıraqa qoyacaq, əvəzində Rusiya Avropanı neft və qazla etibarlı şəkildə təchiz edəcək".

Aydındır ki, dollarla bağlı yaranmış vəziyyət Azərbaycanda da özünü göstərəcək və manatın bu valyutaya qarşı bahalaşması da bu fonda istisna olunmur. Digər tərəfdən görünən həm də odur ki, hökumət, ümumiyyətlə, manatın ən azından sabit qalmasında da maraqlıdır. Nazirlər Kabinetində Baş nazir Əli Əsədovun sədrliyilə keçirilmiş müşavirədə bildirilib ki, Azərbaycan hökuməti dünya bazarında neftin kəskin ucuzlaşmasının tədiyə balansına təsirlərinin proqnoz ssenarilərini hazırlayıb.

Qeyd olunub ki, zərurət olarsa, bu ssenarilərə uyğun sabitləşdirici tədbirlər paketi həyata keçiriləcək:"Neft bazarında və qlobal iqtisadiyyatda baş verən hadisələrə qarşı ölkə iqtisadiyyatının kifayət qədər yüksək maliyyə immuniteti və təhlükəsizlik "yastığı" mövcuddur. 2019-cu ilin yekunlarına görə, strateji valyuta ehtiyatlarımız ÜDM-in 100%-ni ötür, valyuta ehtiyatları xarici dövlət borcunu 6 dəfə üstələyir. Valyuta bazarında sabitliyin və manatın məzənnəsinin qorunması məqsədilə zəruri tədbirlər görülməsi üçün bütün imkanlar var. Həm monetar, həm də iqtisadi siyasətin digər istiqamətləri üzrə nəzərdə tutulan tədbirlər inflyasiyanın hədəflənən səviyyədə saxlanmasını təmin edəcək". Bu açıqlamadan aydın görünür ki, manatın dollara qarşı ucuzlaşması baş verməyəcək. Əksinə, dollara qarşı qlobal miqyasda yeni oyun manatı dollar qarşısında bahalaşdıra bilər.

***Ramil QULİYEV***

# Koronavirusun təhsildə yaratdığı fasilənin çarəsi tapıldı - Nazirliyin teledərslər layihəsi...

**Məlum olduğu kimi, koronavirus təhlükəsi ilə bağlı Nazirlər Kabineti yanında yaradılan Operativ qərargahın qərarı ilə Azərbaycanda bütün orta və ali məktəblərdə tədris müvəqqəti olaraq dayandırılıb. Koronavirusa görə buraxılmış dərslərin kompensasiya edilməsi üçün Təhsil Nazirliyi teledərslərə başlayıb.**



Belə ki, martın 11-dən başlayaraq həftənin 5 günü, saat 10-dan 16-dək Təhsil Nazirliyinin dəstəyilə "Mədəniyyət" kanalında "Dərs vaxtı" adlı teledərslərə artıq start verilib. Bu proqramda teledərslər bütün sinifləri əhatə edəcək, dərs mövzularına dair qısa izah və təlimatlar təqdim olunur.

"İbtidai siniflərin daha çox müəllim dəstəyinə ehtiyacını nəzərə alaraq, 1-4-cü sinif şagirdlərini "Mədəniyyət" kanalının ekranı qarşısında gözləyəcəyik. Artıq müstəqil öyrənmə vərdişləri qazanmış 5-11-ci sinif şagirdləri ilə isə həftədə 2 dəfə görüşəcəyik.

İbtidai siniflərdə "Azərbaycan dili", "Riyaziyyat", "Həyat bilgisi", "Təsviri incəsənət", "Xarici dil", 5-11-ci siniflərdə isə "Azərbaycan dili", "Riyaziyyat", "Xarici dil", "Tarix", "Coğrafiya", "Kimya", "Fizika", "Biologiya" fənləri üzrə qısa videodərslər təqdim ediləcək". Nazirliyin müraciətində bildirilir.

"Əziz şagirdlər! Dərs cədvəlinə diqqət edin, dərsinizi "Dərs vaxtı"nda öyrənin. Unutmayın ki, öyrənmə yalnız sinif otağında deyi, ekran qarşısında da mümkündür.

"Dərs vaxtı"nda həftənin 5 günü sizinləyik! "Dərs vaxtı"na ekran qarşısında baxa bilməyənlər bu imkanı Təhsil Nazirliyinin elektron resursları ilə qazana bilərlər" tövsiyəsi də nazirliyin yaydığı açıqlamada əks olunub.

Bildiyimiz kimi, artıq teledərslərə start verilib. Qeyd edək ki, bir müddət əvvəl təhsil ekspertləri buraxılmış dərslərin kompensasiya olunması üçün onlayn, distant təhsilin həyata keçirilməsini təklif edirdilər.

Tanınmış təhsil eksperti Məlahət Mürşüdlü "Bakı-Xəbər"ə bildirdi ki, nazirliyin "Dərs saatı" layihəsi çox kreativ, qaydalı bir layihədir və bu, şagirdlərə istiqamət vermək baxımından əhəmiyyətlidir: "Koronavirusa görə dərslərin müvəqqəti olaraq təxirə salınması valideynləri o mənada narahat edirdi ki, şagirdlər tədrisdən geri qalacaqlar. Amma, gördüyünüz kimi, narahatlığa əsas yoxdur və Təhsil Nazirliyi bu məsələ ilə bağlı konkret addım atıb, maraqlı bir layihə təqdim edib. Şagirdlərin elektron resurslar vasitəsilə buraxdıqları dərsləri öyrənməsi onlar üçün çox faydalı olacaq. Doğrudur, teledərslər nəticəsində şagirdlərə mövzu ilə bağlı əhatəli məlumat, bilgi vermək çətindir, amma burada onlara istiqamət verilir. Özü də çox maraqlı izahlarla keçilir teledərslər. Təhsil Nazirliyinin start verdiyi teledərs layihəsinin əhəmiyyəti böyükdür".

***Məlahət Mürşüdlü:** "Təhsil Nazirliyinin start verdiyi teledərs layihəsinin əhəmiyyəti böyükdür"*

***Kamran Əsədov:** "Təhsil Nazirliyinin bu addımı təqdirəlayiqdir"*

Digər tanınmış təhsil eksperti Kamran Əsədovun da fikrincə, bu layihə əhəmiyyətlidir: "İlk növbədə qeyd edim ki, 3 martdan 27 marta qədər koronovirus təhlükəsinə görə təhsil müəssisələrində tətil elan edildi və 4447 orta məktəbdə təhsil alan 1.5 milyon şagird üçün gündəlik ardıcıl dərs axını pozuldu. Bu boşluğu aradan qaldırmaq üçün Təhsil Nazirliyi bir nesə maraqlı və faydalı addım atıb. "Mədəniyyət" kanalında yayımlanan teledərslər uşaqlarda maraq yaradır. Təhsil TV peyklə yayımlanmalıdır. Səviyyəsiz layihələrə, verilişlərə ayrılan pullar bu cür maarifləndirici layihələrə xərclənsə, cəmiyyət də cahillikdən xilas olar. Təhsil Nazirliyinin bu addımı təqdirəlayiqdir.

"Mədəniyyət" kanalında videodərslər başlayıb. Yəni uşaqların bu dərsləri izləməsinə nəzarət edilir. Əgər dərsləri bu və ya digər səbəbdən ötürsəniz, onları Təhsil Nazirliyinin rəsmi səhifəsindən, "Facebook" səhifəsindən izləyə bilərsiniz. Bu kimi dərslərin keçirilməsi çox təqdirəlayiqdir. Məktəbdən və təhsildən uzaqlaşmış uşaqlar üçün məktəbdə keçirilən dərsləri tam əvəz etməsə də, onlara yol göstərəcək. Sadəcə, valideyn nəzarəti vacibdir. Lakin bir məqam məni narahat edir. Dərslərin müəyyən siniflər və fənlər üzrə ardıcıllığı, cədvəli yoxdur. Məsələn, 5-ci sinif "Azərbaycan dili" dərsindən sonra 1-ci sinif "Riyaziyyat" dərsi başladı. Bəzi müəllimlər çox sürətlə, bəziləri zəif tembrlə danışırlar. Bu kimi qüsurlar da düşünürəm ki, qısa zamanda aradan qaldırılacaq. Hələ ki izlədiyim dərslər arasında bir dənə də olsun rus bölməsində təhsil alanlar üçün dərs keçirilməyib. Rus bölməsi üçün dərslər yoxdursa, bu çox mənfi haldır. Belə ki, rus bölməsində təhsil alanların hüquqlarının pozulması deməkdir. Onlar da bu ölkənin vətəndaşlarıdırlar. Bu cür hal onlara qarşı, ən azı, ayrıseçkilik olacaq. Ümid edirəm ki, bu, nəzərə alınmayıbsa, növbəti günlərdə nəzərə alınacaq. Bütün hallarda, təhsilin əlçatanlığının təmin olunması üçün atılmış bu addımı müsbət və faydalı hesab edirəm".

*İradə SARIYEVA*

# Koronavirusla mübarizə dövründə super ticarət mərkəzlərinin işləməsi doğrudurmu...

**Koronavirus (COVİD- 19) 70-dən çox ölkəyə yayılıb və artıq dünya üçün böyük təhdidə çevrilib. Azərbaycanda da virusa yoluxma faktının qeydə alınması ilə bütün qurumlar, o cümlədən, ictimai iaşə obyektləri müxtəlif önləyici tədbirlər görməyə başlayıblar. Bununla yanaşı, 20 marta qədər bağçalar, məktəblər və universitetlərdə tədris dayandırılıb.**



Tədrisin dayandırıldığı müddət ərzində məktəb, bağça, ali təhsil ocaqlarında dezinfeksiya işləri aparılır. Məlumat üçün bildirək ki, indiyədək 2400-dən çox məktəbdə profilaktik tədbirlər görülüb.

Dərslərin dayandırılmasından istifadə edən bəzi valideynlər uşaqlarını ticarət mərkəzlərinə, parklara aparıb gəzdirirlər. Ancaq qeyd olunan virusdan qorunmaq üçün əhaliyə xəbərdarlıq olunmuşdu ki, adamların sıx toplaşdıqları ticarət mərkəzlərinə gedilməsin. Ancaq buna baxmayaraq, hələ də iri ticarət mərkəzləri fəaliyyət göstərir və uşaqlar sərbəst şəkildə, maskasız həmin məkanlarda gəzirlər. Maraqlıdır, koronavirus infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə bu kimi məkanlarda dezinfeksiya işləri aparılırmı? Ümumiyyətlə, ölkədə fəaliyyət göstərən iri ticarət mərkəzləri qısamüddətli də olsa, fəaliyyətini dayandıra bilərmi?

Qeyd edək ki, əhalinin ən çox üz tutduğu məkanlar arasında Mall-lar üstünlük təşkil edir. İnsanlar xəbərdarlığa baxmayaraq, hələ də kütləvi yerlərə gedir və adi gündəlik həyat tərzindən kənara çıxmırlar.

Karantin xəstəxanasının baş direktoru Emin Hüseyn qeyd etdi ki, əhali bu tədbirin mahiyyətini başa düşməlidir: "Bu, istirahət tədbiri deyil. Bu, əhalini düşünərək verilmiş bir qərardır".

Baş direktor vətəndaşlara kütləvi yerlərdən uzaq olmağı tövsiyə edib: "Həkim kimi əhaliyə məsləhət görərdim ki, mümkün qədər ev şəraitində olsunlar. Geniş kütləvi yerlərdə olmasınlar. Qərarın mahiyyəti ondan ibarətdir ki, insanlar bir-birilə az təmasda olsunlar və ehtimal olunan infeksiya yayılmasın. Əhalini təşvişə düşməməyə çağırıram. Bu, sadəcə, qabaqlayıcı tədbirdir".

***Emin Hüseyn:** "Qərarın mahiyyəti ondan ibarətdir ki, insanlar bir-birilə az təmasda olsunlar və ehtimal olunan infeksiya yayılmasın"*

***Nuranə İsgəndərova:** "İnsanların üz tutduqları ticarət mərkəzlərimizdə onların sağlamlığı üçün əlavə tədbirlər görülür"*

"Paşa İnşaat Ticarət Mərkəzləri Qrupu"nun marketinq departamentinin rəhbəri Nuranə İsgəndərova bildirdi ki, onlara aid olan ticarət mərkəzlərində bütün lazımi tədbirlər görülür və bundan sonra da görülməkdə davam edəcək: "Bizim qrupa "28 Mall", "Gənclik Mall", "Port Baku Mall" və "Dəniz Mall" daxildir. Bu ticarət mərkəzlərində biz lazımi dezinfeksiya tədbirlərini həyata keçiririk.

Bizə də məlumdur ki, ölkədə virusun yayılması risqi var. Ona görə də insanların üz tutduqları ticarət mərkəzlərimizdə onların sağlamlığı üçün əlavə tədbirlər də görürük. Bəzi avadanlıqlar və vasitələr var ki, biz onları sifariş etmişik.

**Onu da deyim ki, ticarət mərkəzlərimizin sanitar qovşaqlarında əvvəllər əl qurudan aparatlardan istifadə edilirdi. Artıq sanitar qovşaqlarda birdəfəlik istifadə üçün nəzərdə tutulan salfetlər də qoyulacaq. Bütün bunlar insanların sağlamlığı üçündür və koronavirus təhlükəsi aradan qalxana qədər də tədbirlərimiz davam edəcək".**

*Günel CƏLİLOVA*

## Yunus Oğuzun "Ovçu"su və torpaqda doğulan RUH...

**Nizami adına Ədəbiyyat İnstitutunun Ədəbi cərəyanlar sektorunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Elnarə Qaragözova Yunus Oğuzun "Ovçu" romanı haqqında bildirib ki, bu roman cəmiyyətdə maraqla qarşılanıb və müxtəlif elmi fikirlər yaranıb: "Roman Aprel döyüşlərinə həsr edilən ilk əsərdir.**



Tarixi romanlar müəllifi kimi tanınan Yunus Oğuzun bu əsəri tamamilə yeni bir səpgidə yaranıb. Müəllif əvvəlki romanlarında bizim keçmiş tariximizə nəzər salırdısa, bu əsərində müasir tarixi-mizin işığında keçmişi araşdırıb və bu günümüzlə keçmişimiz arasında körpü yaradıb. Bu roman əslində bizim çağdaş mübarizəmiz haqqında böyük dastandır. Çünki Aprel döyüşləri bizim üçün bir oyanış məqamıdır. Dövlətimizin, xalqımızın, Ali Baş Komandamızın öz torpaqlarımızı azad etmək əzmini parlaq şəkildə əks etdirib". E.Qaragözova vurğulayıb ki, "Ovçu" romanı həm də böyük ideoloji mənaya və önəmə malikdir. Artıq bu roman əsasında bir çox tədqiqatlar aparılıb və elmi məqalələr yazılıb: "Bildiyimiz kimi əsərdə üç zaman axını əksini tapıb. Alparslan, Nadir Şah və müasir dövrümüz. Bu dövrlər əsərdə elə yanaşı verilir ki, hər üç dövrdə xalqın qələbəsi təmin edilir. Mən isə deyərdim ki, əsərdə dörd zaman və dörd Murad obrazı var. Muradın öz babası, usta Murad, xan Murad və Muradın özü. Muradın üzərində qurulan əsərə nəzər saldıqda müşahidə olunan ilk məqam reinkarnasiya məsələsidir. Beləliklə, Yunus Oğuz öz əsərində Azərbaycan ədəbiyyatında çox az işlənən bir metodoloji vasitəyə reinkarnasiyaya (ruhun yenidən doğulması) müraciət edib. Əsərə nəzər saldıqda aydın olur ki, əslində Muradın qəhrəmanlığı birdənbirə yaranmayıb, əsrlərdən gələn bir ruh idi. Bu, ruhun yenidən doğulmasıdır. Reinkarnasiya zamanı qəhrəmanın ruhu zaman keçdikcə müəyyən tarixi məqamlarda meydana çıxaraq öz missiyasını yerinə yetirir. Bu əsərdə zaman dəyişsə də məkan dəyişmir. Yunus Oğuz qəhrəmanının reinkarnasiyasını Azərbaycanda gerçəkləşdirib. Çünki bu torpaqda həmin missiya başa çatmamışdı. O missiyanı yerinə yetirmək üçün həmin ruh məhz bu torpaqda yenidən doğulmalı idi". Onun sözlərinə görə, əsərdəki Murad digər muradların sanki bir toplusudur. Lakin əvvəlkilərdən daha mükəmməldir.

# Çörək satışı qaydalarında virus yayılma risqlərinə rəvac verən normalar hələ davam etdirilir

**Koronavirusla bağlı ölkədə qabaqcıl təhlükəsizlik tədbirləri görülür. Məlumdur ki, təhsil müəssisələri müvəqqəti olaraq fəaliyyətini dayandırıb. Bununla yanaşı, iaşə obyektlərində, dövlət müəssisələrində dezinfeksiya işləri aparılır.**

### *Rasif Bağırov: "Marketlərdə çörək və qida məhsullarının açıq şəkildə satılması düzgün deyil"*

Ancaq marketlərdə çörək və digər qida məhsullarının açıq şəkildə satışı hələ davam edir.

Nəzərə almaq lazımdır ki, çörək və digər un məmulatlarının qapalı şəkildə satılması ilə bağlı xüsusi standartlar müəyyən olunsa da, təəssüf ki, hələ də bu qaydalara riayət olunmur. Hazırda koronavirus təhlükəsi olduğu bir vaxtda çörəyin açıq şəkildə satışı düzgün deyil.

Tibb eksperti Rasif Bağırov açıqlamasında bildirdi ki, bişmiş qidalarda heç bir qorxu yoxdur, bişməmişlərdə isə bu risq aşağıdır, bundan çəkinməyə dəyməz: "Bu virus da ən çox damcı üsulu ilə yayılır. İnsanlar danışdıqda ağızdan sıçrayan su vasitəsilə yayılır. Qidalara qaldıqda isə bu risq azdır. Çünki açıq satılan qidalar bişirilir. Bişirildikdə isə viruslar ölür. Açıq satılan meyvələrdə isə ola bilər olsun. Çünki insanlar toxunurlar və çiy halda yeyilir. Ancaq bu hal da çox az ola bilər. Çinin özündə bu qədər ölüm faktı qeydə alınıbsa, başqa dövlətə keçibsə, bu, ərzaqdan ələvə əsasən insan vasitəsilə yayılıb.



Bu gün Azərbaycanda qrip virusları artıb. Səhiyyə Nazirliyi müəyyən etməlidir ki, bu, hansı qrip virusudur. Çünki qrip virusları çoxdur. Yəni bu gün ölkədə insanların yoluxduğu virusun da adı xalqa açıqlanmalıdır. Onu da deyim ki, bu gün Azərbaycanda yayılan virus heç də orqanizmə koronavirusdan az zədə vermir".

Həmsöhbətimiz onu da vurğuladı ki, marketlərdə çörək və qida məhsullarının açıq şəkildə satılması düzgün deyil. Aidiyyəti qurumlar buna xüsusi nəzarət etməlidirlər.

*Günel CƏLİLOVA*

**Çində yayılan koronavirusla əlaqədar olaraq Azərbaycanda da qabaqlayıcı tədbirlər gücləndirilib. Bəzi məlumatlara görə, bu virusun daşıyıcısı olan insanın təması nəticəsində əşya və qidalar vasitəsilə də yayılma təhlükəsi var.**

# Bakıdakı Çin və İtaliya restoranları fəaliyyətini hələ davam etdirir



### *"Asian Street Food" restoranı: "Məhsulumuz Çindən gəlmədiyi üçün qorxulu hal yoxdur"*

### *"Woki Oki" restoranı: "...qiymət baxımından bu mümkün deyil"*

Nəzərə almaq lazımdır ki, ölkəmizdə, xüsusilə Bakıda xeyli sayda xarici restoran var. Hər hansı xarici ölkənin mətbəxini təbliğ edən restoranın fəaliyyət göstərməsi üçün ərzaqların çox hissəsi həmin ölkədən idxal olunmalıdır. Məlum olduğu kimi, artıq koronavirus bütün dünyaya yayılıb və ərzaqlar da təhlükə mənbəyi ola bilər.

Maraqlıdır, Çin və İtaliya restoranlarındakı qidalar yoxlanılırmı? Hazırda virusun yayıldığı xarici ölkələrdən həmin restoranlara qidalar gətirilirmi? Xarici ölkələrə məxsus restoranların bağlanmasına ehtiyac varmı? Restoranlara nəzarət olunurmu?

"Asian Street Food" restoranı da Çindən məhsul gətirmədiklərini bildirdi: "Heç bir məhsulumuz Çindən gəlmədiyi üçün qorxulu hal yoxdur. Biz balıq və krablarımızı Norveçdən gətizdiririk, digər məhsullar isə özümüzünkülərdir. Əsasən mal əti, toyuq əti, balıq və krivetkalardan istifadə edirik. Müştərilərimiz arasında isə azalma müşahidə edilmir".

"Woki Oki" restoranından isə bildirdilər ki, əvvəllər Çindən məhsul gətizdirsələr də, indi bu, qiymət baxımından mümkün deyil: "Bizdə təkcə Çin mətbəxi deyil, Asiya mətbəxidir. Eyni zamanda, Çin üsulu ilə hazırlanan yeməklərdir. Buna görə Çindən birbaşa gətirdiyimiz məhsul yoxdur, yerli ət məhsullarından istifadə edirik. Əvvəllər Çindən məhsul gətizdirirdik, amma devalvasiyadan sonra qiymət baxımından bu mümkün deyil. Çünki oradan bir məhsul gətizdirsək, həmin yeməyin qiyməti aşağı olmayacaq. Müştərilərimiz arasında isə azalma yoxdur".

*Günel CƏLİLOVA*

# Doktorant və dissertantlarla Ali Attestasiya Komissiyası arasında problem hələ tam həll olunmayıb

***Doktorantlar və dissertantlar:** "...haqsızlığa uğramış bu insanlar nəinki elmə faydası olmayan, hətta özünə belə xeyri dəyməyən, illərdir intriqalara, şərə, rüşvətə bulaşmış "elm adamları" kimi deyillər"*

**Redaksiyamıza Ali Attestasiya Komissiyasının 2019-cu il 13 dekabr qərarından narazı olan bir qrup doktorant və dissertant tərəfindən yeni müraciət daxil olub. Doktorant və dissertantlar AAK tərəfindən çıxarılan məlum qərarın tam olaraq ləğv edilmədiyini bildirirlər. Onlar qeyd edirlər ki, AAK onların problemini həll etmək əvəzinə, bütün instansiyaları və ictimaiyyəti aldatmağa çalışır.**

"Ali Attestasiya Komissiyası qanunsuz qərarlar çıxararaq Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli, 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə"nin tələbləri ilə manipulyasiya edir, vətəndaşları ələ salır, bütün instansiyaları və ictimaiyyəti aldatmağa çalışır.

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 13 dekabr 2019-cu il tarixli qərarı artıq üç aya yaxındır ki, elm və təhsil müəssisələrində, o cümlədən, sosial şəbəkələrdə geniş müzakirə obyektinə çevrilib. İş artıq o həddə çatıb ki, təkcə AAK-ın qərarları deyil, ümumən dissertasiya ilə bağlı qoyulan tələblər, məqalələrin nəşri ilə bağlı təlimatlar və digər mühüm sənədlərin məzmunu haqqında ardı-arası kəsilmədən yazılar yazılır, bu barədə çoxşaxəli fikir mübadiləsi aparılır. Bir çox halda isə bu müzakirələr mövzu baxımından xırdalana-xırdalana öz sərhədlərini aşır, nəticədə AAK-ın bir qurum kimi fəaliyyəti və taleyi də müzakirə obyektinə çevrilir. Bu müzakirələrdə zəngin fikir və polemikaların çoxluğu və rəngarəngliyi ilk növbədə onunla bağlıdır ki, uzun illərdən bəri elmi ictimaiyyətin ürəyində və ruhunda kirəclənmiş, paslanmış hisslər - bu qurumun fəaliyyətindəki qeyri-obyektivliklər sanki okean dalğaları kimi qayalara sərt şəkildə çırpılır. Deyilməmiş, ya da, sadəcə, həmkarlar arasında həqarətlə müzakirə edilib elə yerindəcə bağlanmış söhbətlər artıq indi rahat şəkildə ifadə olunur, bu qurumun əvvəlki fəaliyyətindəki nöqsanlar da qalaq şəklində bügünkülərin üstünə gələrək, daha da hiddət və nifrətlə müzakirələrə səbəb olur. Bəli, haradan qaynaqlandı bu addım? İllərdir ürəklərdə yığılıb qalmış bu nifrət və həqarəti belə kobud şəkildə üzə çıxaran nə oldu?

Hələ, yadınızdadırsa, düz 9-10 il əvvəl də belə bir fasilə yaranmışdı, aspiranturadan doktoranturaya keçid prosesində. Hamı onda da böyük inqilabi dəyişikliklər gözləyirdi. Amma nə oldu? Forma dəyişdi, məzmun qaldı, ya da ad dəyişdi, ancaq məna qaldı - dildəki arxaizmlər kimi. Və belə bir axarla da hamının böyük maraqla bir il gözlədiyi yeni Əsasnamənin qəbulu oldu. Hər kəs dörd gözlə bu yenilikləri gözləyirdi ki, nə olacaq. Əsasnamə qəbul olundu. Amma bu da o qədər inqilabi bir şey olmadı. Toplananların yerini dəyişdikdə cəm dəyişmir söhbəti kimi, yəni "üç opponent = aparıcı müəssisə" bərabərliyi kimi. Bunu qəbul edib, şükr olsun deyib, əşşi yolumuza davam edib, elmi işimizi sağ-salamat müdafiə edək deyərək, özümüzə təsəlli verdik. Amma sən saydığını say, gör AAK nə sayır" - deyə yazan şikayətçilərin qeyd etdiyinə görə, AAK yeni Əsasnaməni əlində bayraq edərək "innovativ" qərarlar verməyə başlayıb. "Bu qərarlardan biri - məlum 13 dekabr tarixli qərar o qədər innovativ oldu ki, bu lərzədən bütün növbədə dayananların gözündən yaş gəldi. Amma sevinc göz yaşı deyil ha, fəryad, nalələrdən doğan göz yaşları. Ümid edirik ki, bu fəryad və nalələri uca Allah səbəbkarların ya canlarından, ya mal-mülklərindən, ya balalarından çıxaracaq. Bütün doktorant və dissertantların iki aydan artıq apardıqları mücadiləyə baxmayaraq, öz "uzaqgörən" prinsiplərindən geri dönməyən AAK ona ünvanlanmış bütün məktub və teleqramlara cavab olaraq qərarın dəyişməyəcəyini bildirməklə qalmadı, elm və təhsil müəssisələrinə qapı-qapı düşərək öz qaydalarını əyani şəkildə anlatmaq məcburiyyətində qaldı. Öz mövqeyinin dönməzliyini haqqını tapdaladığı gənclərin şəxsiyyətlərini və fəaliyyətlərini aşağılamaqla əsaslandırmaqda gördü. Nüfuzlu adamların - müəssisə rəhbərlərinin kölgəsinə sığınıb, onlar vasitəsilə xal toplamağa, özünü daha da yüksəldib, suçladığı gənclərin elmi fəaliyyətlərini "nəzarət altına almağa" çalışdı. AAK özü də yaxşı bilirdi ki, verdiyi qərarın arxasında dayanmaq lazımdır. Müəyyən bir qurum hansı qərarı verirsə-versin, mütləq onun arxasında dayanmağı, şamil etdiyi insanlar qrupuna bu qərarın onların rifahı üçün qəbul edildiyini əsaslandırmağı bacarmalıdır. Görünür, AAK gənclərin bu qədər zəkalı, ağıllı, hazırlıqlı olacağını təsəvvür etmədi. Təsəvvür etmədi ki, verdiyi qərarın şamil olunduğu insanlar illərdən bəri elmi və təhsili özünün üfunətli niyyətlərinə alət etmiş titullu mənasız alimlərdən deyil. AAK-ın yeni rəhbərliyinin təcrübəsizliyi göstərdi ki, haqsızlığa uğramış bu insanlar nəinki elmə faydası olmayan, hətta özünə belə xeyri dəyməyən, illərdir intriqalara, şərə, rüşvətə bulaşmış "elm adamları" kimi deyillər. İllərdir AAK-ı Məkkə qapısına çevirən, oradan diplom alan hər kəsi Həcc ziyarəti qəbul olunmuş şəxslər kimi təqdim edənlər məgər bu dəfə bilmirdilər ki, orada əvvəlki üləmalar və imamların yerini indi "baba dərvişlər" tutub? Nə isə... Bütün bunların baş verdiyi və mücadilənin davam etdiyi bir müddətdə isə AAK birdən-birə "insafa gəlib", Konstitusiyaya zidd olan qərarının bir hissəsini dəyişdirdi. AAK bilməliydi ki, verdiyi bu qərar Konstitusiyanın 149-cu maddəsinin 7-ci bəndinə zidd olduğuna görə qismən yox, tamamilə ləğv olunmalıdır. Çünki burada müzakirə və seminardan keçənlər üçün heç bir yüngülləşdirici hal yoxdur. Sadəcə, bir daha sübut olundu ki, AAK çıxardığı qərarları ilə Prezidentin 728 nömrəli Fərmanı ilə təsdiq olunmuş Əsasnamə ilə manipulyasiya edir, vətəndaşları ələ salır, bütün instansiyaları və ictimaiyyəti aldatmağa səy edir. İndiki yüksək titullu şəxslərin bir çoxu da Allahla Allahlıq etməyə çalışır: soyur, talayır, sonra oradan da nəzir verir, ehsan süfrəsi açır. Bəli, sözün əsl mənasında, haqq uğrunda aparılan mücadilədir bu. Aylardır yazılır, fəryad edilir. Bu gənclərin günahı nə idi axı?! İndiki dövrdə - gənclərin qayğılarla yükləndiyi bir zamanda (o qədər də yüksək olmayan maaşla kirayə, ipoteka ödəmək, ailə qayğıları ilə əhatə olunmaq, xəstəliyi və xəstəsinin yaşaması üçün mücadilə aparmaq) süni problemlər yaratmaq nəyə xidmət edir? Gəncləri öldürmək yox, elmə həvəsləndirmək lazımdır, əzizlərim! Bu, haqq-hüququ pozulmuş gənclərin apardıqları mübarizənin bir hissəsinin nəticəsidir. İnanmayanlar da vardı buna, hətta onlar çox idilər. Müəyyən insanları və onların verdikləri qərarları toxunulmaz sayan şəxslər, "ekspertlər", xüsusilə müdafiələrdə özündən deyən alimlər vardı bu sırada. Nə isə. Bu ilk addım da görk oldu. Cənab Prezidentimizin dediyi kimi, kimsə toxunulmaz deyil. Kimsə özünü toxunulmaz hesab edib millətə yuxarıdan aşağa baxmaqla bu milləti sındıra bilməz. Biz nə istəyirik? Ədalətli, qanun çərçivəsində insanların güzəranını yaxşılaşdıran qərarlar verilsin. Bu qədər sıxıntıların içərisində insanlar bezməsin, usanmasın. Hansı qərarlar verilirsə-verilsin, orada insan amilini unutmaq olmaz. İnsanlıq üçün qərarlar verilərsə, kimsə kimsəni incitməz, düşmən gözü ilə baxmaz bir-birinə.




*"AAK bilməliydi ki, verdiyi bu qərar Konstitusiyanın 149-cu maddəsinin 7-ci bəndinə zidd olduğuna görə qismən yox, tamamilə ləğv olunmalıdır"*

Haqq uğrunda - ədalətli Azərbaycan uğrunda mübarizə davam edir. Biz Prezidentimizin yanındayıq. Allah hamımızın yardımçısı olsun!" - deyə doktorantlar və dissertantlar qəzetimizə ünvanladıqları məktubda bildirirlər.

Qarşı tərəfin də mövqeyini əks etdirə bilərik.

***İradə SARIYEVA***

№ 44 (4175) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

12 MART 2020-ci il

www.baki-xeber.com



# Kassasız və növbəsiz supermarket...

**ABŞ-da "Amazon" şirkətinin ilk tamamilə avtomatlaşdırılmış supermarketinin rəsmi açılışı olub. Kassa aparatı və növbə yoxdur.**

Bu həftə Siyetldə yeni formatda ilk ərzaq marketi ("Amazon Go Grocery") istifadəyə verilib. Ümumi sahəsi 715 kv.metr olan ticarət salonlarında alıcılara ət, meyvə, şirniyyat məhsulları daxil olmaqla 5 mindən çox məhsul təklif edilir. "İctnews.az" bildirir ki, "Amazon"un ticarət nöqtəsinin əsas özəlliyi kompüter görmə texnologiyaları, dərin öyrənmə alqoritmləri və bir çox müxtəlif datçiklərdən ibarət mürəkkəb sistemdir. "Amazon Go Grocery" supermarketinə daxil olmuş alıcı mobil proqram vasitəsilə QR kodu skan etməli, məhsulları səbətə yığmalı və çıxmalıdır. Ödəniş avtomatik olaraq həyata keçəcək. İnnovativ mağazanın tavanına real vaxt rejimində alıcının nəyi və nə qədər götürməsini qeydə alan yüzlərlə kamera quraşdırılıb. Sistem rəfə qaytarılmış məhsulları nəzərə almır. Yeganə istisna spirtli içkilər bölməsidir. Bu bölmədə alıcıdan şəxsiyyət vəsiqəsini təqdim etməyi tələb edən işçi var.

## NASA agentliyi yeni Mars aparatının adını açıqladı

**NASA agentliyi uzun illərdir ki, öz kosmik aparatlarına maraqlı adların verilməsi ənənəsinə sahibdir. Mars səthində fəaliyyət göstərən "Curiosity" aparatına yaxın zamanda yoldaşlıq edəcək yeni Mars aparatı da bu məsələdə istisna olmayıb.**



Yeni Mars aparatı öz adını açıq səsvermə sayəsində əldə edib. Keçirilmiş açıq səsvermədə Yer kürəsinin hər bir şəxsi iştirak edə bilərdi. Bu barədə "Engadget" saytı xəbər verib.

Beləliklə, səsvermə nəticəsində ən çox səs toplamış ad Perseverance (inadkarlıq) olub. Qeyd etmək lazımdır ki, ən çox səs yığmış adlar üzrə ilk doqquzluğa həmçinin Endurance, Tenacity, Promise, Vision, Clarity, Ingenuity, Fortitude və Courage adları olublar. Gözləntilərə əsasən "Perseverance" adlı yeni Mars aparatı bu ilin iyul ayında qırmızı planetə göndəriləcək. Sözügedən aparat Mars səthində olan süxurların yığılması və saxlanması ilə məşğul olacaq. Yer kürəsindəki alimlər isə onların analizi ilə məşğul olacaqlar.



## "Qırmızı"nı sevən qadın qəbrini də al rəngə boyayacaq

**Bosniya Herseqovinianın "qırmızı qadın"ı olaraq tanınan 67 yaşlı təqaüdçü müəllimi Zorika Rebernik həyatını al rəngə həsr edib.**

"Milli.Az" xəbər verir ki, Rebernik Bosniya Herseqovinianın Breze kəndində yaşayır. Onun bütün həyatı qırmızı rəngin əhatəsində keçib. Hətta, Rebernik qırmızıya olan sevgisini öldükdən sonra da davam etdirmək istəyir. Buna görə mazar daşını da hələ sağ ikən qırmızı rəngdə seçib. Belə ki, evli və iki uşaq anası olan Rebernik uşaq ikən ağ və çəhrayı rəngə üstünlük verirmiş. Yaşı irəlilədikcə ürəyinin səsi onu qırmızı rəngi sevməyə səslədiyini deyir. Mətbəxində, evinin qonaq otağında və bağçada qırmızı rəngdən başqa rəng istifadə etmir. Rebernik toy günündə belə qırmızı rəngdə gəlinlik geyinib. O 1975-ci ildə evləndiyini və həmin illərdə qırmızı rəngin xoş günlərini bildirib. Beləliklə, də getdiyi hər ölkədən, xüsusilə də İstanbuldan qırmızı rəngdə əşya və geyimlər almağa başlayıb. Həyat yoldaşı Zvonko isə Rebernikin qırmızıya olan sevgisini anlayışla qarşılayır. O məktəbdə dərs dediyi vaxtlarda belə qırmızı rəngdə geyinib və şagirdlərinə də bu rəngin gözəlliyini aşılayıb. Odur ki, ona verilən hədiyyələr belə bu rəngdə olurdu. Yas mərasimlərində də qırmızı libas geyinən qadın özü və yoldaşı üçün bu rəngdə məzar daşını Hindistandan sifariş edib.

### Elan

Təhməzov Nizami Xanlar oğlunun adına verilmiş Qarabağ müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baloğlanov İslam İbad oğlunun adına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Rəfiyev Elşad Balay oğlunun adına verilmiş Qarabağ müharibəsi veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Mahmudov İlqar Məhəmmədnəbi oğlunun adına, Bakı şəhəri, Nəsimi rayonu, Əlisgəndər İsgəndərov küçəsi, bina 5, mənzil 12 ünvanına verilmiş çıxarış (seriya MH N0049818) itdiyi üçün etibarsız sayılır.

Zeynalova (Abdullayeva) Rühəngiz Çərkəz qızının adına, Şamaxı rayonu, Nağaraxana kəndində yerləşən torpaq sahəsinin (JN:31F) şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Yaradıcılıq, ixtiraçılıq ruhu günüdür. Dəyişikliklər və yeniliklər zamanının çatdığını intuitiv hiss edirsiniz. Dəyərli və layiqli hədəf seçin, prosesi sürətləndirin. Yeniliklərə və sürətli, ani qərarlara hazır olun.



**Buğa** - İzafi səy göstərməyin, çünki əsas məqsədə çatmaq asan deyil. Ən optimal davranış modeli qarşılıqlı mənfəət nəzərə alınmaqla sövdələşməkdir. Axşam saatlarında yaxşıca dincəlin.



**Əkizlər** - Maddi sərfiyyat və xərclər tələb edən planlarınız var. Gəlir mənbələrinin sayını artırmaq və mümkün qədər az vaxt sərf edərək çox iş görməyin yollarını düşünün. Maraq dairəniz genişlənir.



**Xərçəng** - Ümumi iş və hətta çətinliklərin sizi birləşdirdiyi insanla ünsiyyət daha asan olacaq. Yanlışlıqlar və səhvlər üzərində birgə iş situasiyanı tədricən düzəldəcək, soyuqluğu aradan qaldıracaq, yaxınlaşmaya səbəb olacaq.



**Şir** - Başqa istiqamətdə baş verəcək hadisə sizi sevindirəcək. Fəaliyyətnizin maliyyə məqamlarına xüsusi diqqət ayırın. Günün ikinci yarısında fiziki işlə məşğul olun.



**Qız** - Fəal olun, təxirəsalınmaz işləri başa vurun. Münasibətləri aydınlaşdırmağa çalışmayın, çünki, izafi aşkarlıq bu gün kimsəyə xeyir verməyəcək. Prioritetləri yenidən dəyərləndirin, planlara dəyişikliklər və əlavələr edin.



**Tərəzi** - Zirək olmaq istəyirsinizsə, öz üzünüzü başqalarının aynasında görməyə çalışın. Sizin üçün dəyərli olan nəsnələr - hisslər, münasibətlər, maddi vəsait və resurslar bu gün sınağa məruz qalacaq.



**Əqrəb** - Gözləntilərinizdə aldanmayın. Tələb, iddia səviyyəsini aşağı salın. Adətən, problemlər və anlaşılmazlıqlarla qarşılaşdığınız görüşə qatılmayın. Hisslər və emosiyalar müstəvisində böhran var.



**Oxatan** - Karmik düyünlər aşkarlanacaq, önəmli münasibətlərin məğzinə yeni baxışa imkan verən hadisələr baş verəcək. Qərarları siz qəbul edirsiniz. Amma tərəfdaş, iş yoldaşı və ya şərikin reaksiyasına diqqətlə fikir verin.



**Oğlaq** - Reaksiyanız dəqiq və adekvat olmalıdır. İmkanlarınızı olduğundan artıq dəyərləndirməyin. Hansısa məsələdə tam əmin deyilsinizsə, o məsələni təxirə salın. Borc almayın, yerinə yetirə bilməyəcəyiniz vədlər verməyin.



**Dolça** - Çevik və qıvraq, mütəhərrik olun, işinizin detallarına xüsusi fikir verin. Ev işlərinə və yaxınlarınızla münasibətlərə laqeyd qalmayın. Ailə üzvlərini birləşdirəcək mövzu və ya məşğuliyyət tapsanız, axşam saatları sakit keçəcək.



**Balıqlar** - Yeni imkanlar yaranır və onlardan istifadə etmək gərəkdir. Bununla belə, bədxahlarınız arasında kimsə sizə mane olmaq üçün xüsusi aktivlik göstərir. Çalışacağınız sahəni, əldə etməyə çalışdığınız nəsnəni müəyyənləşdirin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Türkiyə əhalisinin 52,4 faizi özünü xoşbəxt sayır

**Türkiyənin Statistika Komitəsi tərəfindən ölkə əhalisinin xoşbəxtlik göstəriciləri araşdırılıb.**



"AZƏRTAC" xəbər verir ki, hesablamalara əsasən ölkə əhalisinin 52,4 faizi özünü xoşbəxt hiss edir. Onların əksəriyyəti sağlam, ali təhsil almış, ailəli şəxslərdir. Sorğuda iştirak edən 65 yaşdan yuxarı şəxslər isə xoşbəxtlik hissi keçirmədiklərini bildiriblər. Türkiyənin ən xoşbəxt şəhərləri olaraq isə Sinop, Afyonkarahisar və Bayburt müəyyən edilib.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.